Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

4
FEVRAL
2020-ci il
№ 19 (4150)
Qiyməti
40 qəpik

www.baki-xeber.com

Həftədə
5 dəfə çıxır
Qəzet
2003-cü ildən
nəşr olunur

# ERMƏNİSTAN RUSİYA MÜSTƏVİSİNDƏ MÖVQELƏRİNİ İTİRMƏKDƏ DAVAM EDİR - QONDARMA «ARTSAX» BARƏDƏ FİLMİN NÜMAYİŞİNƏ RƏSMİ İCAZƏ VERİLMƏDİ...

■ səh. 7 ■

Prezident İlham Əliyev regionların 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda iştirak etdi ■ səh. 2 ■

Azərbaycanın çoxdan hədəflədiyi Cenevrə görüşünü substantiv danışıqların başlanğıcı hesab etmək olarmı... ■ səh. 5 ■

Paşinyan bir ay əvvəl Qarabağ müzakirələrində heç bir sənəd olmadığını demişdi - Cenevrədən Baş nazirə şapalaq effekti... ■ səh. 7 ■

Cenevrə danışıqları Ermənistanın bütün kartlarını sonadək yandırdı... ■ səh. 6 ■

NATO Rusiyaya qarşı mövqeyini sərtləşdirməyə çalışırsa... "Görüş niyə Bakıda keçirilir" sualı aktuallaşır ■ səh. 8 ■

YAP-dan başqa partiyaların da seçki fonduna xeyriyyə yardımları varmı... ■ səh. 3 ■

Bank sektorumuzda yeni növ kreditlər problemi - şübhəli kreditlər nədir... ■ səh. 12 ■

Azərbaycanda cəmi 3 iqlim qurşağı var imiş? - İllər boyu 9 qurşaqdan danışanların fikri alt-üst edilir... ■ səh. 15 ■

Əhmədlidə su sayğaclarının dəyişdirilməsinə 20 manat haqqı kim müəyyənləşdirib? ■ səh. 15 ■



## Bakıda son NATO-Rusiya hərbi görüşündən iki ay sonra yeni görüş zərurəti - həm də yenə Bakıda, nə baş verir...

■ səh. 5 ■





«Azərbaycan Ermənistanın çox güvəndiyi Su-30 qırıcılarını sərçə kimi qıracaq» - keçmiş erməni nazir xəbərdarlıq etdi ■ səh. 9 ■

Banklar üzə durub - Elman Rüstəmov da bacara bilmir, yeni qanuna əl atıldı... ■ səh. 10 ■

Yenidən seçkiyə qatılmış bəzi deputatlar barədə video-foto qalmaqallarının seçkinin nəticələrinə mümkün təsirləri... ■ səh. 3 ■

■ səh. 4 ■ Saatlı və Sabirabad kəndlərindən toplanmış böyük seçici izdihamına Əhliman Əmiraslanovun sözü - "Mənim iş günüm seçicilərlə görüşdən başlayır"



■ səh. 4 ■ İki-üç dəfədən çox deputat olmuş bir sıra şəxslərin budəfəki namizədliyinə açıq neqativ ictimai münasibətin səbəbləri...



■ səh. 11 ■ Qorxulu Çin virusunun siyasi mənşəyi barədə şübhələr - Çinin iqtisadiyyatına necə milyard ziyan vuruldu...



■ səh. 12 ■ Fiziki şəxslər pullarını depozit kimi banklara daha çox etibar edirlər



■ səh. 13 ■ Sosial ipoteka ilə alınan evlərin sayı azalır - Bakıda sosial ipotekadan imtina edilir...






# Prezident İlham Əliyev regionların 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda iştirak etdi

**Fevralın 3-də "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfrans keçirilib. Prezident İlham Əliyev konfransda iştirak edib və giriş nitqi söyləyib.**

Sonra İqtisadiyyat naziri Mikayıl Cabbarov, Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev, Mingəçevir Sənaye Parkındakı "Mingəçevir Tekstil" MMC-nin direktoru Mehman Hüseynov, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, "Naxçıvan Duz İstehsalı" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Anar Əsədullayev, Quba Rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyev, "Brightman Business Management Consultans" meyvə və tərəvəz konservlərinin istehsalı müəssisəsinin direktoru Afət Əhmədova, Astara Rayon İcra Hakimiyyətinin başçısı Qəzənfər Ağayev, "Ağstafa Aqrar Sənaye Kompleksi" müəssisəsinin icraçı direktoru Anar Orucov və Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı Ceyhun Cəfərov çıxış edib. Sonda Prezident İlham Əliyev yekun nitqi söyləyib.



## Vilayət Eyvazov fevralın 29-da Şirvanda 10 şəhər və rayonun sakinlərini qəbul edəcək

**Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov tərəfindən 2020-ci il fevral ayının 29-da Şirvan şəhər Polis Şöbəsində Şirvan, Sabirabad, Salyan, Neftçala, Hacıqabul, Biləsuvar, Cəbrayıl, İmişli, Zərdab, Saatlı şəhər və rayonlarının sakinlərinin qəbulunun keçirilməsi nəzərdə tutulur.**

Vətəndaşlar daxili işlər orqanlarının əməkdaşlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət etməklə qəbula yazıla bilər.

Qəbula gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidir.

## DİN müavini Seyfulla Əzimov fevralın 22-də Bərdə Polis İdarəsində qəbul keçirəcək

**Azərbaycan Respublikası Daxili İşlər nazirinin birinci müavini, polis general-mayoru Seyfulla Əzimov tərəfindən 2020-ci il fevral ayının 22-də Bərdə rayon Polis Şöbəsində Bərdə, Ağcabədi, Tərtər, Ağdam, Şuşa, Laçın, Beyləqan, Füzuli, Xocavənd, Goranboy, Xocalı, Naftalan şəhər və rayonlarının sakinlərinin qəbulunun keçirilməsi nəzərdə tutulur.**

Vətəndaşlar daxili işlər orqanlarının əməkdaşlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət etməklə qəbula yazıla bilər.

Qəbula gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidir.

## ABŞ-ın Azərbaycandakı səfirliyi koronavirusla əlaqədar xəbərdarlıq etdi

**ABŞ-ın Azərbaycandakı səfirliyi koronavirusun yayılması ilə əlaqədar bəyanat verib. "Trend"-in məlumatına görə, bəyanat səfirliyin "Facebook" səhifəsində yerləşdirilib.**

Qeyd olunur ki, ABŞ Prezidentinin rəsmi müraciətinə əsasən, ABŞ vətəndaşı olmayan və ya ölkə ərazisində daimi yaşayış hüququ olmayan şəxslərə, Honq Konq və Makao istisna olmaqla, Çin ərazisində olduqdan sonra 14 gün ərzində ABŞ ərazisinə daxil olma qadağan edilir:

"Əgər siz Çində yaşayırsınızsa, bu yaxınlarda Çində olmusunuzsa və ya ABŞ-a səfər ərəfəsində Çinə getməyi planlaşdırırsınızsa, viza alınması üçün müsahibəni Çinə səfərdən 14 gün sonraya saxlamağınızı tövsiyə edirik".

# KİVDF 2020-ci ilin birinci yarısı üçün 25 ictimai-siyasi qəzetin maliyyələşdirilməsinə qərar verdi

*Fondun 2019-cu ildəki fəaliyyəti qənaətbəxş qiymətləndirildi*

**Fevralın 3-də Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Müşahidə Şurasının növbəti iclası keçirilib. Fondun Müşahidə Şurasının sədri Həsən Həsənov iclası açıq elan edərək gündəlikdəki məsələlər barədə məlumat verib:**

1. Fondun 2019-cu il üzrə fəaliyyətinin yekunlarına həsr olunmuş hesabatının müzakirəsi və təsdiqi; 2. 2020-ci ilin I yarısı üzrə qəzetlərə maliyyə yardımının ayrılması ilə bağlı müsabiqəyə təqdim edilmiş layihə sənədlərinin müzakirəsi və təsdiqi; 3. Fondun 2020-ci il üçün Tədbirlər Planının müzakirəsi və təsdiqi; 4. Fondun 2020-ci il üçün ekspertlər siyahısının müzakirəsi və təsdiqi.



Müşahidə Şurasının sədri Həsən Həsənov gündəlikdəki birinci məsələ barədə məlumat vermək üçün sözü Fondun icraçı direktoru Vüqar Səfərliyə verib. İclasda hesabat məruzəsi ilə çıxış edən icraçı direktor 2019-cu ildə mətbuatın maddi-texniki bazasının möhkəmləndirilməsi, jurnalistlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi və sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən çoxsaylı layihə barədə məlumat verib. İcraçı direktor Fondun ötən il gündəlik, günaşırı və həftəlik nəşr olunan 25 ictimai-siyasi qəzetə maliyyə dəstəyi göstərdiyini, həmin qəzetlərdə "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"nda nəzərdə tutulmuş 19 istiqamət üzrə 4.000 səhifədən çox yazının dərc edildiyini bildirib.

2019-cu ildə Fondun yaranmasının 10-cu ildönümünün tamam olduğunu xatırladan Vüqar Səfərli bu münasibətlə yubiley tədbirinin təşkil edildiyini, eyni zamanda, qısametrajlı film və fotoalbomun hazırlandığını diqqətə çatdırıb.

Jurnalistlərin peşəkarlığının artırılması və sosial müdafiəsinin gücləndirilməsi məsələlərinə xüsusi diqqət ayrıldığını deyən V.Səfərli Fond tərəfindən bu məqsədlə 3 dəfə - Novruz bayramı, Azərbaycan Milli Mətbuatının 144-cü ildönümü və 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə fərdi jurnalist yazıları müsabiqələrinin təşkil olunduğunu diqqətə çatdırıb. Bildirilib ki, Fond 2019-cu ildə Mədəniyyət Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (2 dəfə), "Azərenerji" ASC və Dövlət Statistika Komitəsi ilə birgə əlavə 5 yazı müsabiqəsi keçirib. Ümumilikdə, 8 müsabiqədə 596 nəfər iştirak edib, onlardan 403 nəfəri qalib olaraq mükafatlandırılıb.

İcraçı direktor, həmçinin, bildirib ki, beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə ötən ilin iyun ayında aparıcı media qurumlarının rəhbərlərindən ibarət nümayəndə heyətinin Rusiya Federasiyasının paytaxtı Moskva şəhərinə işgüzar səfəri təşkil edilib.

Fondun redaksiyalara metodiki, texniki-təşkilati, konsultativ və maliyyə dəstəyini davam etdirdiyini deyən V.Səfərli ötən il keçirilmiş digər layihə və tədbirlər barədə də ətraflı məlumat verib.

Hesabat ətrafında aparılan müzakirələr zamanı Müşahidə Şurasının sədri Həsən Həsənov, sədr müavini İlqar Hüseynov, üzvlərdən Cəmaləddin Quliyev, Bəhruz Quliyev, İntiqam Hümbətov, Əvəz Rüstəmov, Rasim Həsənov, Ramiz Əskər və Ayaz Mirzəyev çıxış edərək Fondun fəaliyyətini qənaətbəxş dəyərləndiriblər və hesabat yekdilliklə qəbul edilib.

İclasda ikinci məsələ kimi 2020-ci ilin I yarısı üçün qəzetlərə maliyyə yardımı müsabiqəsinə təqdim edilmiş layihə sənədləri müzakirə edilib. V.Səfərli bildirib ki, sənədləri qaydasında olan ictimai-siyasi qəzetlərin 2019-cu ilin II yarısında olduğu kimi, yayım və tirajlarına görə 3 kateqoriya üzrə (gündəlik, günaşırı və həftəlik) maliyyələşdirilməsi təklif edilir.

Sonra Müşahidə Şurasının üzvləri yayım və tirajla bağlı təqdim edilmiş sənədlər əsasında geniş müzakirələr aparıblar. Müzakirələr nəticəsində ictimai-siyasi qəzetlərin təklif olunan 3 kateqoriya üzrə maliyyələşdirilməsi məqsədəuyğun sayılıb.

Müşahidə Şurasının iclasında üçüncü məsələ kimi Fondun 2020-ci il üzrə Tədbirlər Planı da müzakirə olunub. Cari il respublikamızda "Könüllülər ili" elan olunduğunu, eyni zamanda, Milli Mətbuatın yaranmasının 145-ci ildönümünün qeyd ediləcəyini diqqətə çatdıran V.Səfərli Tədbirlər Planında bunların nəzərə alındığını vurğulayıb. Tədbirlər Planı Müşahidə Şurasının üzvləri tərəfindən müsbət dəyərləndirilərək qəbul edilib.

İclasda, həmçinin, Fondun 2020-ci il üzrə layihələrin qiymətləndirilməsini həyata keçirəcək ekspertlərinin siyahısı müzakirə olunaraq təsdiq edilib.

**Baki-xeber.com**

**Seçkinin təbliğat-təşviqat mərhələsi bitmək üzrədir. Bu müddət ərzində deputatlığa namizədlər olduqca maraqlı jestləri, seçki taktikaları ilə yadda qaldılar. Namizədlər bütün təbliğatlarını sosial media üzərindən işıqlandırdıqları üçün, baş verənlərin hamısından xalqımız xəbər tutdu.**

# Yenidən seçkiyə qatılmış bəzi deputatlar barədə video-foto qalmaqallarının seçkinin nəticələrinə mümkün təsirləri...

## *Samir Adıgözəlli: "Belə deputat seçilməkdənsə, gedib öz bacardıqları işlərlə məşğul olsalar yaxşıdır"*



Nələri müşahidə etdik? Görünən bu oldu ki, parlamentin buraxılmasına səs verən və yenidən deputat olmaq istəyənlərin böyük əksəriyyətinə seçicilərin münasibəti mənfidir. Kəndlərdə keçirilən görüşlərdə onlardan hesabat tələb olunduğunun, hətta kənddən açıq formada qovulmalarının da şahidi olduq.

Belə biabırçılıqlardan yaxa qurtarmaq üçün həmin namizədlər olmazın oyunlarından çıxdılar. Gah qoca nənələri tapıb öpdülər, gah da şəhid evlərini ziyarət edib bunu piarlarında istifadə etdilər. Sonradan bir neçə şəhid ailəsi həmin təbliğat formasına kəskin etirazını bildirdi. Bütün bu mənzərələri seyr edən sosial şəbəkə istifadəçiləri təbii ki, öz etirazlarını açıq şəkildə bəyan etdilər. Ancaq görünən budur ki, bu cür biabırçı mənzərələrdə nəticə çıxarmaq əvəzinə ittihamlara tuş gələn namizədlərin heç biri iddialarından əl çəkmədi, əksinə, yenə də deputat marafonunda yarışmaq niyyətini ortaya qoydu.

Bu cür biabırçı mənzərələrin ictimailəşməsi onunla üzləşən namizədlərlə bağlı seçkinin nəticələrinə necə təsir edəcək?

İctimai-Siyasi Proseslər Beynəlxalq Araşdırmalar Mərkəzinin (İSBAM) rəhbəri Samir Adıgözəlli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, deyilən məzmunda videoları ictimailəşdirilən namizədlər, demək olar, seçkinin birinci raundunu uduzublar: "Fikir versək görərik ki, analoji halla daha çox bir neçə dəfə deputat seçilənlər üzləşir. Niyə? Çünki seçici ilə görüşə getmirlər. Bir də 5 ildən sonra gedib səs istəyirlər. Axı seçicini bu şəkildə ələ salmaq, ona qarşı laqeydlik nümayiş etdirmək olmaz. Sosial şəbəkələrdə ictimailəşən görüntülər şəffaflığı əks etdirir. Orada heç bir montajdan və ya əvvəlcədən nəyinsə təşkilindən söhbət belə gedə bilməz. Reallıq budur ki, xalq onları aldadıb mandatını qazananları sevmir, hətta belələrinə nifrət edir. Təbii ki, belə namizədlərin seçilməsi də asan olmayacaq. Yaxşı olardı ki, bundan seçiləcək yeni millət vəkilləri bir dərs götürsünlər. Bilsinlər ki, xalqın vəkili olmağın yolu onu aldatmaqdan keçmir, ona xidmətdən, ehtiramdan keçir. Mən təəssüf edirəm ki, kəndlərdən, hətta həyətlərdən qovulanlar gedib namizədliklərini geri götürmək əvəzinə, onlara qarşı təxribatın olduğunu bildirirlər. Vallah, belə deputat seçilməkdənsə, gedib öz bacardıqları işlərlə məşğul olsalar yaxşıdır".

***Məhəmmədəli QƏRİBLİ***

**Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərdə xüsusi seçki fonduna daxil olan vəsaitin məbləğini açıqlayıb. Fiziki şəxslər partiyaya 453 300 manat ianə köçürüblər. Qeyd edək ki, maliyyə hesabatını MSK-ya YAP-ın maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsi Siyavuş Novruzov təqdim edib.**

# YAP-dan başqa partiyaların da seçki fonduna xeyriyyə yardımları varmı...

Bildirilir ki, seçki fonduna 250 manatdan çox ianə köçürənlərin sayı 200 nəfərdir. Qeyd edək ki, seçki prosesində YAP-la yanaşı, bir çox partiya da iştirak edir. Bəs onların bu istiqamətdə vəziyyətləri necədir?

Ana Vətən Partiyası mətbuat xidmətinin rəhbəri Tünzalə İsmayılova qəzetimizə bildirdi ki, onlar pul toplanması ilə bağlı sıravi üzvlərə, xalqa müraciət etməyiblər: "Namizədlərin bütün təbliğat-təşviqat işlərinə seçki prosesində nə qədər pul xərclənibsə, hamısı partiyanın hesabına olunub. Bizim partiya parlamentdə təmsil olunduğu üçün, ona büdcədən pul ayrılır. Həmin vəsait də öz hesabımızdan xərclənir. Bunun miqdarı barədə konkret rəqəm deyə bilmərəm. Çünki dəqiq məbləğ seçkidən sonra hesablanıb tam bəlli olacaq".

Seçkidə iştirak edən Müasir Müsavat Partiyasının ideologiya məsələləri üzrə sədr müavini Könül Vaqifqızı qəzetimizə bildirdi ki, belə kampaniyanın keçirilməsinə zərurət görməyiblər: "Biz xalqa nəsə etməyə çalışırıq, onlardan niyə pul istəməliyik? Bizim partiyadan seçkiyə elə də çox adam qatılmayıb. İştirak edən namizədlərin hamısı öz gücünə bu işi aparır. Hərəyə öz dostu, tanışı yardım edir. Bir də bizə könüllülər də çox kömək göstərirlər. Seçkidə iştiraka o qədər də böyük vəsait lazım deyil ki, belə kampaniya keçirək. Əsas xərc poster və broşurların çapına gedir, onu da birtəhər qarşılayırıq. Bizim partiya belə kampaniya keçirməyib".



***Tünzalə İsmayılova:** "Həmin vəsait də öz hesabımızdan xərclənir"*

***Könül Vaqifqızı:** "Biz xalqa nəsə etməyə çalışırıq, onlardan niyə pul istəməliyik?"*

***Elman Abbasov:** "Çox adam yardım edəcəyi ilə bağlı söz verdi, amma xəbər çıxmadı"*

Seçkiyə 80-ə yaxın namizədlə qatılan Ümid Partiyası sədrinin mətbuat və informasiya məsələləri üzrə müavini Elman Abbasov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, onlar seçkinin gedişində belə bir kampaniyaya start veriblər: "Biz bütün rekvizitləri, bank hesablarımızı qeyd etdik. Çox adam yardım edəcəyi ilə bağlı söz verdi, amma xəbər çıxmadı. İndi mən maraqlandım, bu günə qədər bir manat da olsun pul köçürülməyib. YAP-a niyə çox pulun yığıldığı aydındır. Çünki hakimiyyət partiyasıdır".

***Məhəmmədəli QƏRİBLİ***

## MDB müşahidəçilər missiyası Azərbaycan MSK-nın seçki kampaniyasının təşkili üzrə ardıcıl iş apardığını bildirdi

**Azərbaycanın Mərkəzi Seçki Komissiyası (MSK) seçki kampaniyasının təşkili üzrə ardıcıl iş aparır. "Trend"-in məlumatına görə, bu barədə MDB müşahidəçilər missiyasının parlament seçkilərinə hazırlıq barədə keçid hesabatında deyilir.**

Sənəddə qeyd olunub ki, yanvarın 19-da işə başlamış missiya öz fəaliyyətini azad və müstəqil şəkildə Azərbaycan qanunvericiliyinə uyğun olaraq, seçki prosesinə müdaxilə etməmək prinsipinə əməl edərək və dövlətin suverenliyinə hörmət çərçivəsində həyata keçirir.

Missiya bildirir ki, MSK seçki kampaniyasının təşkili üzrə ardıcıl və müntəzəm iş aparır. Hesabatda MSK-nın seçkilərin təşkilatçılarının təliminə böyük diqqət ayırması vurğulanıb: "Dairə və məntəqə seçki komissiyalarının üzvlərinin peşəkar hazırlığının artırılması, seçki kampaniyasının aparılmasında onların bilik və bacarıqlarının təkmilləşdirilməsi üçün MSK prokurorluq, polis və məhkəmə nümayəndələrinin iştirakı ilə təlimlər təşkil edib. Məşğələlər zamanı Seçki Məcəlləsinin tələblərinin reallaşdırılması, seçki prosesinin demokratikliyi və şəffaflığı, səslərin sayılmasının şəffaflığının təmin olunması üzrə tövsiyələr verilib".

Hesabatda vurğulanıb ki, MSK və digər seçki komissiyaları seçkilərin qanunvericiliyin tələblərinə uyğun keçirilməsi üçün zəruri tədbirlər görür.

## ATƏT PA-nın 60-dan çox üzvü Azərbaycandakı seçkiləri müşahidə edəcək

**ATƏT-in Parlament Assambleyası (ATƏT PA) fevralın 9-da Azərbaycanda keçiriləcək parlament seçkilərini monitorinq etmək üçün 60-a yaxın müşahidəçidən ibarət nümayəndə heyəti göndərəcək.**

Trend-ə ATƏT PA-nın mətbuat xidmətindən verilən məlumata görə, müşahidəçilərin 40-ı 29 ölkədən olan deputatlardır.

Azərbaycan hökumətinin dəvətilə göndəriləcək missiya Bakı, Gəncə və İsmayıllıda seçkiləri müşahidə edəcək.

Ukraynalı deputat Artur Gerasimov ATƏT-in fəaliyyətdə olan sədrliyi tərəfindən ATƏT-in qısamüddətli müşahidə missiyasının xüsusi koordinatoru təyin edilib, ATƏT PA-nın nümayəndə heyətinə isə albaniyalı deputat Elona Hoca-Qjebrea rəhbərlik edəcək.

**65 saylı Saatlı-Sabirabad-Kürdəmir seçki dairəsindən Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi, akademik Əhliman Əmiraslanovun seçicilərlə görüşləri davam edir.**

# Saatlı və Sabirabad kəndlərindən toplanmış böyük seçici izdihamına Əhliman Əmiraslanovun sözü - "Mənim iş günüm seçicilərlə görüşdən başlayır"









Budəfəki görüş Sabirabad rayonunun Narlıq kəndində baş tutub. Görüşdə çıxış edən YAP Sabirabad rayon təşkilatının sədri Məleykə Ağayeva Əhliman Əmiraslanovun Sabirabad əhalisinə qarşı diqqət və qayğısından danışıb.

Növbəti dəfə seçicilərinin görüşünə gələn Əhliman Əmiraslanov bildirib: "Bu gün Ulu öndər Heydər Əliyev siyasətinin uğurlu davamçısı ölkə Prezidenti, partiyamızın sədri, cənab İlham Əliyev ölkəmizin tərəqqisi istiqamətində məqsədyönlü işlər aparır. Ölkəmizdə bütün sahələrdə olduğu kimi səhiyyə sahəsində də ciddi islahatlar aparılır. Sizi əmin etmək istəyirəm ki, icbari tibbi sığortanın tətbiqi ilə əlaqədar olaraq vətəndaşlarımız yüksək keyfiyyətli tibbi xidmətlə təmin ediləcək".

Tədbirdə çıxış edən seçicilər deputatın ötən illər ərzindəki fəaliyyətindən razı qaldıqlarını, onun seçicilərinin etimadını layiqincə doğrultduğunu və 9 fevral seçkilərində də növbəti dəfə Əhliman Əmiraslanovun namizədliyini dəstəkləyəcəklərini bildiriblər.

65 saylı Saatlı-Sabirabad-Kürdəmir seçki dairəsi üzrə Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi, Milli Məclisin Səhiyyə komitəsinin sədri akademik Əhliman Əmiraslanovun təbliğat-təşviqat kampaniyası çərçivəsində daha bir görüşü 65 saylı seçki dairəsinə daxil olan Saatlı rayonunun Qaracalar kəndində bu kəndlə yanaşı qonşu Varxan, Gomuşçu, Seyidlər, Əlisoltanlı və Bəylər kəndlərinin sakinlərinin iştirakı ilə baş tutub.

Görüşdə çıxış edən YAP Saatlı rayon təşkilatının sədri Lütfəli Şıxəliyev ölkəmizdə keçiriləcək parlament seçkiləri ilə bağlı məlumat verib. L.Şıxəliyev ölkəmizdəki quruculuq işlərindən danışaraq seçiciləri "Daha güclü Azərbaycan naminə" Yeni Azərbaycan Partiyasının namizədinə səs verməyə çağırıb.

Görüş zamanı akademik Əhliman Əmiraslanov sakinləri maraqlandıran məsələlərdən söz açaraq, bildirib: "Mənim iş günüm seçicilərlə görüşdən başlayır. Bacardığım qədər hər kəsə yardım etməyə çalışmışam və bundan sonra da belə olacaq".

Görüşdə çıxış edən seçicilər onların problemlərinə hər zaman xüsusi qayğı və həssaslıqla yanaşdığına görə deputatlara minnətdarlıq edərək, yenə də dövlətimizin siyasi kursuna və hakim partiyanın namizədi olan Əhliman Əmiraslanova səs verəcəklərini bildiriblər.

***Namiq QULİYEV***

**Məlum olduğu kimi, Azərbaycanda Milli Məclisə fevralın 9-da seçkilər keçiriləcək. Seçkilərə artıq sayılı günlər qalıb. İndiyə qədər parlament seçkilərində iştirak etmək üçün 1637 namizəd qeydə alınıb. Onlardan 313-ü namizədliyini geri götürüb. Hazırda deputatlığa namizədlərin sayı 1324 nəfərdir.**

# İki-üç dəfədən çox deputat olmuş bir sıra şəxslərin budəfəki namizədliyinə açıq neqativ ictimai münasibətin səbəbləri...

## *İlqar Hüseynli: "Çünki 2-3 dəfə deputat olanların bir çoxu bir dəfə də olsun seçicilərin sosial qayğıları ilə yaşamayıb"*




Onların sayının bu həftə də azalacağı istisna olunmur. Ümumilikdə, növbədənkənar parlament seçkilərində iştirak etmək üçün 2431 nəfər müraciət edib.

O da məlumdur ki, budəfəki seçkilərdə əvvəl millət vəkili olmuş bir çox şəxs namizədliyini yenidən verib. Namizəd var 25-30 ildir parlamentdə təmsil olunmağına baxmayaraq, yenidən namizədliyini irəli sürüb. Müşahidələr göstərir ki, 2-3 dəfə millət vəkili olan bəzi şəxslərin yenidən namizəd olmasına cəmiyyətdə sərt neqativ münasibət var. Bunun nəticəsidir ki, bəzi belə namizədlərin seçicilərlə görüşündə müəyyən insidentlər baş verir. Açıq formada belə namizədlər boykot edilir, görüşlərdə onların yenidən namizəd olmasına seçicilər etiraz edirlər. Bununla bağlı hətta sosial şəbəkələrdə, internet saytlarında bəzi videogörüntülər də yayılıb. Məlumata görə, iki dəfə deputat olan bəzi namizədlər müəyyən kəndlərdə seçicilərlə görüşə bilməyiblər. Bəzi belə namizədlər kəndlərdən faktiki olaraq qovulublar. Görünən odur ki, bəzi seçki dairələrində 2-3 dəfə deputat olanların yenidən bununla bağlı iddia ortaya qoyması açıq neqativ münasibətə səbəb olur. Maraqlıdır, bunun səbəbi nə ilə bağlıdır?

Məsələyə münasibət bildirən ekspert İlqar Hüseynlinin fikrincə, bir sıra şəxslərin yenidən deputat olmasına ictimaiyyətin neqativ münasibət bəsləməsinin kökündə bir sıra amillər dayanır: "Çünki 2-3 dəfə deputat olanların bir çoxu bir dəfə də olsun seçicilərin sosial qayğıları ilə yaşamayıb. Dairədəki sosial problemlərin həllinə passiv yanaşıblar, cəmiyyətə yuxarıdan aşağı baxıblar. Xalqın içinə girib problemləri ilə maraqlanmayıblar. Cəmiyyətdən ictimai dəstək almayıblar. Seçkidən-seçkiyə xalq onların yadına düşür. Prezident İlham Əliyevin ortada çox ciddi tapşırıqları var ki, xalqdan səs alan MM-də təmsil olunacaq. İndi onların yadına düşüb ki, xalqın içində olmaq lazımdır. O üzdən, parlament seçkilərində növbəti dəfə mandat almaq istəyirlər. Bu da haqlı olaraq ictimaiyyət tərəfindən qəzəblə qarşılanır. Açıq formada cəmiyyət onlara etiraz edir. Səbəb məhz bu sadaladığım amillərlə bağlıdır".

*"Bu da haqlı olaraq ictimaiyyət tərəfindən qəzəblə qarşılanır"*

***Vidadi ORDAHALLI***

**Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeriy Gerasimov və NATO-nun Avropadakı Birgə Silahlı Qüvvələrinin Baş komandanı Tod Uolters arasında danışıqları təxminən 6-7 fevral tarixlərində Bakıda keçirmək planlaşdırılır. Bu barədə diplomatik mənbədən məlumat verilib.**



# Bakıda son NATO-Rusiya hərbi görüşündən iki ay sonra yeni görüş zərurəti - həm də yenə Bakıda, nə baş verir...

***Qabil Hüseynli:** "Son iki ay ərzində dünyada hər iki tərəfin marağını kəsb edən mühüm proseslər yaşanıb"*

Məlumatda deyilir: "Qarşıdan gələn həftə, təxminən 6-7 fevral tarixlərində Rusiya Silahlı Qüvvələri Baş Qərargah rəisi, Müdafiə nazirinin birinci müavini, ordu generalı Valeriy Gerasimov ilə NATO-nun Avropadakı Birgə Silahlı Qüvvələrinin Baş komandanı, Amerikalı general Tod Uolters arasında danışıqlar planlaşdırılır. Görüşün gündəliyi barədə yalnız tərəflər bilirlər. Bakı ənənəvi görüş yeridir".

Qeyd edək ki, Rusiya-NATO formatında əvvəlki görüş noyabrın 26-da Bakıda keçirilib.

Göründüyü kimi, tərəflərin son görüşü iki ay əvvəl olub. Üstündən qısa müddət keçməsinə baxmayaraq, belə mühüm görüşün keçirilməsinə yaranan zərurət nədən irəli gələ bilər və görüş yerinin yenidən Bakı seçilməsi nə ilə əlaqəlidir?

Politoloq Qabil Hüseynli qəzetimizə bildirdi ki, görüşün Bakıda keçirilməsi, sadəcə, təsadüf kimi xarakterizə oluna bilməz: "Əksinə, xatırlatmaq lazımdır ki, Azərbaycan son dövrlər çoxsaylı beynəlxalq əhəmiyyətli humanitar, siyasi, iqtisadi, idman tədbirinə, forum və konfranslara ev sahibliyi edir, bəzilərinin isə əsas təşkilatçısıdır. Buna Birinci Avropa Oyunları, Dördüncü İslam Həmrəyliyi Oyunları, Bakı Beynəlxalq Humanitar Forumu, Gənclər Siyasəti üzrə Qlobal Forumu, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunu və digər mötəbər tədbirləri nümunə göstərmək olar. Bu bir daha sübut edir ki, Azərbaycan beynəlxalq əhəmiyyətli tədbirlərin keçirildiyi, qlobal məsələlərin müzakirə olunduğu, ciddi qərarların qəbul edildiyi mühüm platforma, unikal dialoq məkanına çevrilib. Bu mənada, N A T O - R u s i y a görüşünün Bakıda keçirilməsi dövlətimizin nüfuzuna, beynəlxalq arenada formalaşdırdığı yüksək imicə verilən növbəti qiymət, dəyərdir.

Bakıda təşkil olunan görüşdə müzakirə olunan məsələlər də həm dünya, həm də Azərbaycan ictimaiyyəti üçün ciddi maraq kəsb edir. Ölkəmizin NATO ilə münasibətləri strateji əməkdaşlıq formatındadır. Azərbaycan etibarlı tərəfdaş kimi İraq, Əfqanıstan və Kosovodakı sülhməramlı missiyaların yerinə yetirilməsində yaxından iştirak edir.

NATO - Rusiya dialoqunda Azərbaycan dəqiq, aydın, neytral mövqe tutur, barış missiyalarını arxayın bir şəkildə öz üzərinə götürür. Bu həm də Azərbaycanın müstəqil siyasətinin nəticəsidir. Rusiya və NATO rəsmi Bakını məhz müstəqil və neytral ölkə gözündə görür. Bu həm də güvən məsələsidir, tərəflər əmindir ki, Azərbaycandakı görüş müzakirə olunan məsələlərin konfedensiallığı baxımından da risq daşımır. Görüşün iki ay sonra yenidən baş tutması dünyada baş verən mühüm yeniliklərlə bağlıdır. Son iki ay ərzində dünyada hər iki tərəfin marağını kəsb edən mühüm proseslər yaşanıb. Bura İranla ABŞ arasındakı qarşıdurmanın kəskin mərhələyə qədəm qoymasını, Liviyada vəziyyətin tam dəyişdiyini və Suriyada proseslərin tam həllini tapmamasını aid edə bilərik. Ola bilər ki, tərəflər başqa mühüm məsələlər ətrafında da müzakirələr aparsınlar".

***Məhəmmədəli QƏRİBLİ***

**Məlum olduğu kimi, ötən həftə Azərbaycan və Ermənistan Xairci İşlər nazirləri arasında danışıqların növbəti raundu oldu. Görüşün detalları açıqlanmasa da, Xarici İşlər Nazirliyi və həmsədrlər bəyanatla çıxış etdilər.**

*"...erməni tərəfi danışıqlarla bağlı mövqeyini dəfələrlə dəyişib və üçüncü tərəfi prosesə cəlb etməyə çalışır"*

# Azərbaycanın çoxdan hədəflədiyi Cenevrə görüşünü substantiv danışıqların başlanğıcı hesab etmək olarmı...

***Fikrət Sadıqov:** "Cenevrə görüşünü qismən substantiv danışıqlar prosesi hesab etmək olar"*

Azərbaycan Xarici İşlər Nazirliyinin yaydığı məlumata görə, Cenevrə görüşü son illər ərzində tərəflər arasında keçirilmiş ən intensiv müzakirələrin aparıldığı görüş olub. Tərəflər həmsədrlərin təqdim etdiyi gündəlik üzrə hərtərəfli müzakirələr aparıblar: "Bu sırada, ilk olaraq, 2019-cu il ərzində irəli sürülmüş təkliflər və əldə olunmuş razılıqların, xüsusilə iki ölkə əhalisinin sülhə hazırlanması üçün humanitar mübadilələrin həyata keçirilməsi, münaqişənin tənzimlənməsinin əsasını təşkil edən prinsip və elementlər, xüsusilə də münaqişənin Helsinki Yekun Aktının prinsipləri və müddəaları əsasında həlli və nəhayət, münaqişənin həlli prosesinin daha da intensivləşdirilməsi məsələləri müzakirə olunub".

Onu da qeyd edək ki, sözügedən görüş çox uzun və intensiv xarakterli oldu. Nəzərə almaq lazımdır ki, danışıqlar 7 saat çəkib və indiyə qədər belə uzun danışıqlar olmayıb. Ən başlıcası, görüşün iki gün keçirilməsi danışıqları konkret müstəviyə çıxarmaq üçün kifayət qədər ciddi səylərin olduğunu göstərir. Bütün bunlardan çıxış edərək Cenevrədəki görüşü substantiv (məzmunu olan) danışıqların başlanması hesab etmək olarmı?

Məsələyə münasibət bildirən keçmiş diplomat, politoloq Fikrət Sadıqovun sözlərinə görə, Cenevrə görüşünü qismən substantiv danışıqlar prosesi hesab etmək olar: "Düzdür, Xarici İşlər nazirləri arasında danışıqların iki gün davam etməsi o demək deyil ki, Cenevrə danışıqları uğurla tamamlanmalı idi. Sadəcə olaraq iki gün ərzində bir neçə saat danışıqların aparılması prosesin gərgin keçməsinə işarə edir. Çünki uzun illərdir Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı aparılan danışıqlar nəticə vermir. Təbii ki, belə bir mürəkkəb münaqişə bir-iki gün ərzində həll edilə bilməz. Buna baxmayaraq, görünən odur ki, danışıqlar konkret məsələlər ətrafında aparılıb. Azərbaycan öz mövqeyini bir daha ortaya qoyub. Bununla belə, Azərbaycan tərəfinin mövqeyi gündəmdədir. Çünki biz görürük ki, erməni tərəfi danışıqlarla bağlı mövqeyini dəfələrlə dəyişib və üçüncü tərəfi prosesə cəlb etməyə çalışır.



Bununla bağlı rəsmi İrəvan müxtəlif sərsəm bəyanatlar səsləndirir. Ona görə də bu mənada biz qəti və prinsipial mövqeyimizi dəfələrlə bildirmişik. Yəni danışıqlar konkret predmet üzrə və beynəlxalq hüquq normalarına uyğun aparılmalıdır. Görünür, bir sıra məsələlərə yenidən aydınlıq gətirilməsi lazım olacaq. Çünki tərəflər belə qərara gəliblər ki, Cenevrə danışıqlarının davamı Münhendə olmalıdır. Düşünürəm ki, növbəti gərgin danışıqlar Almaniyanın Münhen şəhərində davam etdiriləcək".

***Vidadi ORDAHALLI***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az



# Cenevrə danışıqları Ermənistanın bütün kartlarını sonadək yandırdı...

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

**Məlum olduğu kimi, yanvarın 28-30-da Cenevrədə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin ATƏT-in Minsk Qrupunun həmsədrləri, eləcə də ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin iştirakı ilə görüşü baş tutub. Cenevrə görüşü son illər ərzində tərəflər arasında keçirilmiş ən intensiv müzakirələrin aparıldığı görüş olub.**

Tərəflər həmsədrlərin təqdim etdiyi gündəlik üzrə hərtərəfli müzakirələr aparıblar. Bu sırada ilk olaraq 2019-cu il ərzində irəli sürülmüş təkliflər və əldə olunmuş razılıqların, xüsusilə iki ölkə əhalisinin sülhə hazırlanması üçün humanitar mübadilələrin həyata keçirilməsi, ikinci, münaqişənin tənzimlənməsinin əsasını təşkil edən prinsip və elementlər, xüsusilə də münaqişənin Helsinki Yekun Aktının prinsipləri və müddəaları əsasında həlli və nəhayət, münaqişənin həlli prosesinin daha da intensivləşdirilməsi məsələləri müzakirə olunub. Bu xüsusda nazirlər yaxın zamanda yenidən görüşməyə razılaşıblar. Digər tərəfdən o da məlumdur ki, danışıqlar çərçivəsində konkret təkliflər var. Bu təkliflər yenilənmiş "Madrid prinsipləri"ndən irəli gəlir. Prinsiplərin fəlsəfəsi mərhələli şəkildə münaqişəni həll etməkdən ibarətdir. Bu fonda Rusiyanın "Kommersant" nəşri də Elmar Məmmədyarovla Zöhrab Mnatsakanyan arasındakı görüşlə bağlı maraqlı fikirlərər toxunub: "Cenevrədə Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında ikigünlük danışıqlar başa çatdı. Nəticədə kifayət qədər adi bir bəyanat açıqlandı ki, bu da, əsas məsələlərin həll olunmamasına baxmayaraq, tərəflərin 2019-cu ildə başlayan "kiçik addımları" davam etdirmək niyyətində olduqlarını göstərir. Əvvəla, hər iki tərəfdən jurnalistlərin və ictimai xadimlərin səfərlərindən bəhs edirik.

Eyni zamanda, Bakı və İrəvan xarici işlər nazirlərinin beş dəfə görüşdüyü ötən ilin tempini qoruyub saxlamaq istəyirlər. Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin 2020-ci ildə ilk görüşü qeyri-adi olaraq uzun sürüb. Yanvarın 29-da 7 saat, yanvarın 30-da 4 saat davam edib. Ancaq bu hələ tam deyil, çünki nazirlərin hər biri əsas danışıqlar ərəfəsindən əvvəl ATƏT-in Minsk Qrupu həmsədrləri ilə görüş keçirib. Görüşün müddəti rekord sayıla bilməz. Qarabağ münaqişəsinin tarixində daha uzun danışıqlar müddəti də olub. Lakin Bakı danışıqları "son illərdə baş tutan ən intensiv görüş" kimi xarakterizə edib. Eyni zamanda, nazirlərin arasında baş tutan danışıqlardan heç bir məlumat sızması olmadı. Bu görüşün hər hansı bir şəkildə fərqli olacağına dair bir işarə olub. Amma on saatlıq marafondan sonra açıqlanan rəsmi bəyanat həddindən artıq çox cüzi görünür. Azərbaycan Xarici İşlər Nazirliyinin məlumatına görə, tərəflər "2019-cu ildə irəli sürülən təklifləri, xüsusən də iki xalqın sülhə hazırlığına, humanitar mübadilə", eləcə də "nizamlanmanın əsasını təşkil edən prinsip və elementləri" nəzərdən keçiriblər. "Bakı Helsinki Yekun Aktına - sərhədlərin toxunulmazlığını özündə əks etdirən 1975-ci il sənədinə xüsusi diqqət yetirib. Keçən il isə, uzun illər ərzində ilk dəfə olaraq, erməni jurnalistlərin Azərbaycana və əks tərəfin də səfərləri həyata keçirilib. Bundan sonra mübadilə prosesinə yalnız jurnalistləri deyil, ictimai və mədəniyyət xadimlərini də cəlb etməklə davam etmək qərarı verilib. Ermənistan Xarici İşlər Nazirliyinin açıqladığı bəyanat praktik olaraq eyni idi. Bu açıqlamada da 2019-cu il təklifləri və nizamlama prinsipləri haqqında danışılır və yaxın gələcəkdə yenidən görüşmək istəyi təsdiqlənirdi. Amma burada Qarabağın icmaları ilə bağlı ziddiyyət var. İrəvan erməni icmasını müstəqil formada göstərmək istəyir. Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Leyla Abdullayeva da öz növbəsində "Kommersant"a Bakının bu məsələdəki mövqeyini təqdim edib. "Dağlıq Qarabağın seçilmiş hakimiyyəti" deyəndə soruşmaq istəyirəm, bəs kim tərəfindən seçilib? Orada etnik təmizlənmə baş verib və azərbaycanlılar ərazilərindən qovulub. Hansı seçkilərdən danışa bilərik?", - deyə mətbuat katibi bildirib. İrəvan reallıqda ictimai təşkilat şəklində mövcud olan Dağlıq Qarabağın Azərbaycanlı İcmasını tanımaqdan imtina edir. Amma bunu etmək onun üçün daha da çətinləşir. Bu fonda yanvarın 29-da İlham Əliyevin Fransa prezidenti Emmanuel Makronla telefon danışığı baş tutub. Xatırladaq ki, Fransa ABŞ və Rusiya ilə birgə ATƏT-in Minsk Qrupu həmsədrlərindən biridir. "Azərbaycan prezidenti Fransa prezidentinə bir daha Bakının münaqişəyə baxışını təqdim edib", - deyə mətbuat xidməti telefon danışığının Parisin təşəbbüsü ilə baş tutduğunu açıqlayıb. Telefon danışığının özü də çox şeydən xəbər verir. Həmsədr ölkələrin prezidentləri nadir hallarda danışıqlarla bağlı aktivlik nümayiş etdirirlər. Bu durumda Ermənistanda Cenevrə danışıqları ilə bağlı ciddi narahatlıq qeydə alınır. Erməni ekspertləri Azərbaycanın istədiyinə yaxınlaşdığını bildirir". Rusiya nəşrinin yazdığını "168jam" qəzetinə müsahibəsində Ermənistan Milli Təhlükəsizlik Xidmətinin keçmiş direktoru David Şahnazaryan da təsdiq edir. O bildirir ki, Cenevrədə Mnatsakanyan və Məmmədyarov arasında Qarabağ konfliktinin siyasi həlli ətrafında əsaslı danışıqlar aparılıb: "Əsas məsələlərdən biri Dağlıq Qarabağda erməni və azərbaycanlılar arasında birgə yaşayış zonalarının yaradılmasıdır. İlk növbədə Şuşa məsələsi, eləcə də əsaslı danışıqların intensivləşdirilməsi müzakirə edilir. Məhz bu kontekstdə Cenevrə danışıqları ilə paralel olaraq ABŞ-ın Azərbaycandakı səfiri Erl Litsenberger öz təşəbbüsü ilə Dağlıq Qarabağın Azərbaycanlı İcmasının rəhbəri Tural Gəncəliyevlə görüşüb". "Vahid Ermənistan" Partiyasının həmtəsisçisi Vladimir Martirosyan isə bildirir: "Əgər bu günlərin danışıqları zamanı həqiqətən də Dağlıq Qarabağda ermənilərin və azərbaycanlıların birgə məskunlaşması zonalarının yaradılması məsələsi müzakirə olunubsa, Şahnazaryanın qeyd etdiyi kimi, onda bu, Qarabağın Azərbaycanlı İcması anlayışının artıq status aldığı demək olacaq". Onun sözlərinə görə, icma, həmçinin amil statusunu da alır, bu amillə nə qədər hesaba oturacaqlarını və təyinedici olacaqlarını hələlik bilmək olmur: "Bu prosesin artıq bizim üçün idarəolunmaz olacağı vəziyyətə düşməyimizi istəməzdim".

Ermənistanda "Vətəndaş platforması" təşkilatının rəhbəri, ekspert Aqvan Poqosyan da Azərbaycanın manevrlərinin İrəvanı daha çətin vəziyyətə saldığını vurğulayır: "Nikol Paşinyan Dağlıq Qarabağın Azərbaycanlı Icmasının danışıqlar prosesinə daxil olmasına imkan yaradır". Erməni ekspert Cenevrədə Azərbaycan və Ermənistan XİN rəhbərlərinin görüşünə diqqət çəkərək bildirir: "Nazirlər Cenevrədə 7 saatlıq danışıqlar aparanda ABŞ-ın Azərbaycandakı səfiri icmanın rəhbəri Tural Gəncəliyevlə Bakıda görüşdü. Paşinyanın addımları Azərbaycan icmasının masaya gələcəyini göstərir". Qeyd edək ki, Dağlıq Qarabağın Azərbaycanlı İcmasının danışıqlarda iştirakı Ermənistanın "Qarabağdakı separatçı rejimi" tərəf kimi göstərmək niyyətini alt-üst edərək Azərbaycanın mövqeyini gücləndirir. Eyni mövqeni rusiyalı analitik Stanislav Tarasov da bölüşür. O bildirir ki, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Cenevrədə baş tutmuş görüşü danışıqlarda hanısa prosesin getdiyini nümayiş etdirir. Tarasov qeyd edib ki, yanvarın 29-da 7 saat, yanvarın 30-da isə 4 saatdan artıq davam edən görüş bunu sübut edir. Onun sözlərinə görə, hazırda danışıqlar "Madrid prinsipləri" ətrafında gedir və bu sənəd hələ də masadadır: "Ermənistan baş naziri bir şey bildirir, xarici işlər naziri Mnatsakanyan görüşlərdə başqa şey edir. O, konkret sənəd ətrafında danışıqlar aparır və bu, "Madrid prinsipləri"dir. Onun etdiyi və Paşinyanın dedikləri bir-birinə uyğun gəlmir". Tarasov hesab edir ki, Paşinyan öz bəyanatları ilə reallığı gizlədir. Ekspertin sözlərinə görə, uzunmüddətli danışıqlarda yalnız humanitar məsələlərin müzakirə edilməsi mümkün deyil: "Mnatsakanyan danışıqlarda fərqli şeyi müzakirə edir, Paşinyan isə açıq şəkildə başqa şey barədə danışır. Bu, həmsədrlərdə çaşqınlıq yaradır. Ermənistan hakimiyyəti öz xalqına açıq şəkildə bildirməlidir ki, əslində nəyin ətrafında danışıqlar aparılır".

Digər tərəfdən o da faktdır ki, Ermənistanın Qarabağ yanaşmasını artıq vasitəçilər də qəbul etmir. Nikol Paşinyanın Cenevrə görüşü ərəfəsində Qafanda keçirdiyi mətbuat konfransında danışıqların bəzi detallarını açıqlamasan həmsədrlərin münasibəti əd bunu təsdiq edir. Paşinyanın belə bir açıqlama ilə çıxış etməsi, özü də bunu məhz vacib görüş ərəfəsində etməsi danışıqlara vasitəçilik edən həmsədrləri də ciddi narahat edib. Vasitəçilərin görüşün yekunlarına dair bəyanatlarında münaqişənin sülh yolu ilə həlli və nizamlama prosesində məxfilik prinsipinə əməl etməyin vacibliyini tərəflərə xatırlatmaları belə deməyə əsas verir. Nikol Paşinyanın bu addımının həmsədrlərin ciddi narahatlığına səbəb olduğu barədə erməni mətbuatında da xəbərlər dərc olunur. Mətbuatın yazdığına görə, həmsədrlər Minsk Qrupunun strategiyası ilə ziddiyyət təşkil edən fikirləri Paşinyanın növbəti özfəaliyyət cəhdi kimi qəbul ediblər. Erməni mətbuatı da bu fonda yazır ki, həmsədrlər Paşinyanın Qarabağla bağlı dediklərinə görə Cenevrədə Zöhrab Mnatsakanyanla kifayət qədər sərt danışıblar. Həmsədrlərin bu xatırlatmasının məhz Ermənistan tərəfinə, konkret Paşinyana ünvanlandığı şübhəsizdir. Çünki Azərbaycan rəsmiləri tərəfindən bu məzmunda heç bir açıqlama olmayıb. Bütün bunlar Ermənistanın hərəkətlərinin artıq beynəlxalq miqyasda da qəbul olunmadığını aydın nümayiş etdirir və İrəvanı daha zəif mövqe sahibinə çevririr.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Cenevrə görüşündən bir ay əvvəl Ermənistanın Baş naziri Nikol Paşinyan bildirmişdi ki, danışıqlar masasında konkret sənəd yoxdursa, bu, danışıqlar deyil, görüşlərdir. ATƏT-in Minsk Qrupu həmsədrlərinin Azərbaycan və Ermənistan Xarici İşlər nazirlərinin Cenevrə görüşünə dair yaydığı bəyanatda isə danışıqlar zamanı tərəflərin 2019-cu ildəki danışıqlar və razılaşmalarının nəticələrinə yekun vurulduğu qeyd olunur.**

# Paşinyan bir ay əvvəl Qarabağ müzakirələrində heç bir sənəd olmadığını demişdi - Cenevrədən Baş nazirə şapalaq effekti...



## Elşən Mustafayev: *"Real mənzərə bundan ibarətdir ki, Ermənistanın işğal edilən torpaqları geri qaytarmaq niyyəti yoxdur"*

Sual yaranır: danışıqlar aparmırsınızsa, necə razılığa gəldiniz, belə çıxır ki, 2019-cu il ərzində danışıqlar aparılıb.

Bundan əlavə, bəyanatda məsələnin sonrakı həlli üçün əsas sayılan prinsip və elementlərə diqqət yetirilib. Qeyd edək ki, Madrid prinsiplərindən başqa heç bir danışıqlar paketində vasitəçilər "prinsiplər və elementlər" ifadələrini işlətmirdilər. Bir həftə bundan əvvəl Baş nazir Paşinyan Qafanda yenidən danışıqlar masasında sənədin olmadığını bəyan etdi, ancaq biz Cenevrədə bu sənədin olduğunu görürük. Belə olan təqdirdə, Paşinyanı yalan danışmağa nə vadar edir?

Politoloq Elşən Mustafayev qəzetimizə açıqlamasında bildirdi ki, danışıqların hansı istiqamətdə getdiyi, hansı sənəd üzrə aparıldığı hamıya, o cümlədən, Paşinyana yaxşı məlumdur: "Danışıqlar 2005-2006-cı illərdə ortaya çıxan "Madrid prinsipləri" adlı sənəd üzrə aparılır. 2009-dan sənədin yenilənmiş variantı da mövcuddur. Bunun əsasında da müxtəlif sənədlər təklif edilib. Bu sənədlər müzakirə edilsə də, ermənilər daim Dağlıq Qarabağ ətrafındakı rayonların azad edilməsini qəbul edir, amma müxtəlif şərtlər də qoyurdular. Bu şərtlər də onunla bağlı olurdu ki, yeddi rayonun azad edilməsi müqabilində Dağlıq Qarabağın "müstəqilliyi" Azərbaycan tərəfindən qəbul edilsin. Təxminən bu təklif əsasında danışıqlar gedirdi və erməni tərəfinin mövqeyi belə idi. Sözsüz ki, Azərbaycan tərəfi bu mövqeni qəbul etmirdi. İndi Paşinyanın başqa çarəsi qalmayıb. Manevr imkanları bitib. Güzəştə getsə, daxildə vəziyyət pisləşir. Mövqeyində qalanda isə problemin həlli dalana dirənir və müharibə risqi artır. Buna görə də Paşinyan bu addımı siyasi imicini təhlükədən qorumaq və danışıqlardan imtina etmək üçün atır. Əslində, Azərbaycan üçün burada yeni nəsə yoxdur. Çünki hakimiyyətə gələndən bu tərəfə Paşinyan daim danışıqlara zərbə vuran mövqe ortaya qoyub və onun yersizliyini əsaslandırmağa çalışıb. O, daim imitasiya ilə məşğul olub. Belə olan halda, yenə Paşinyan pis vəziyyətə düşür. Çünki Azərbaycan dövlətinin mövqeyi dəyişməz qalır. Bu da ondan ibarətdir ki, ya sülh yolu, danışıqlar vasitəsilə Azərbaycanın torpaqları azad edilir, ya da Azərbaycan silah gücü ilə öz ərazi bütövlüyünü təmin etmək məcburiyyətində qalır. Ancaq real mənzərə bundan ibarətdir ki, Ermənistanın işğal edilən torpaqları geri qaytarmaq niyyəti yoxdur. Belə vəziyyətdə söz həmsədrlərin olmalıdır. Yəni onlar mənasız danışıqların davamını məqbul saymamalıdırlar. Konstruktivliyə nail olmaq üçün isə Paşinyana konkret təzyiqlər göstərilməlidir. Artıq Paşinyan gizli şəkildə yox, açıq bəyanatı ilə danışıqların mənasız olduğunu ifadə edir. Onun son bir ay ərzində verdiyi açıqlamalar ancaq həmin mövqeyin gücləndirilməsinə xidmət edib".

***Məhəmmədəli QƏRİBLİ***

**Rusiya Federasiyası ərazisində millətlərarası münaqişəni qızışdırmaq və separatçılıq ideyalarını təbliğ etmək məqsədilə çəkilmiş erməni filminin Moskvada nümayişinə qadağa qoyulub. Belə ki, yanvarın 26-da Rusiya paytaxtının "Pobeda" kinoteatrında nümayişi nəzərdə tutulmuş "Aran - mistik ölkə" adlı bədii-sənədli filmin təqdimatı təxirə salınıb.**

# Ermənistan Rusiya müstəvisində mövqelərini itirməkdə davam edir - qondarma "Artsax" barədə filmin nümayişinə rəsmi icazə verilmədi...



## Ramil Hüseynov: *"Rusiyada ermənilərin bu kimi maneələrlə üzləşməsi bir sıra faktorlardan irəli gəlir"*

Moskvada həmin filmin nümayişinə icazə verilməyib. Sözügedən filmdə Azərbaycanın əzəli torpaqları olan Dağlıq Qarabağ və ona bitişik yeddi rayonun "tarixi Ermənistan" torpağı olduğu iddia edilib.

Filmin nümayişinə kəskin etiraz bildirən Moskva Azərbaycanlıları İcmasının sədri Şamil Tağıyev şəhər hökumətinin mədəniyyət departamentinə müraciət edib. Erməni separatçılarının məkrli niyyətlərini diqqətə çatdıran icma sədri filmin göstərilməsindən imtina etməyə çağırıb və xəbərdarlıq edib ki, əks halda, Rusiyanın Xarici İşlər Nazirliyinə və müvafiq dövlət orqanlarına müraciət göndəriləcək.

Qeyd edək ki, bundan əvvəl Qazaxıstanda erməni təxribatının qarşısı alınmışdı. Azərbaycanın Qazaxıstandakı səfirliyinin etirazı nəticəsində qardaş ölkədə yalançı faktlara əsaslanan "Qərbi Ermənistan, itirilmiş vətən" adlı erməni filminin nümayişindən imtina edilib.

Moskvada sözügedən filmin nümayişinə icazə verilməməsi erməniləri bərk hiddətləndirib. Bir sıra erməni saytları bu səbəbdən Rusiyanı ciddi tənqid ediblər. Görünən odur ki, ermənilər Rusiya müstəvisində hər keçən gün mövqelərini itirirlər. Əvvəlki kimi erməni lobbisi Azərbaycana qarşı təbliğat apara bilmir. Hansı ki, bir vaxtlar ermənilər öz mənafelərinə uyğun informasiyaları Rusiya mətbuatı, telekanallarında çox asanlıqla təqdim edirdilər. Həmçinin, Dağlıq Qarabağdakı separatçı qurumun təbliği ilə bağlı müxtəlif adlar altında tədbirlər keçirirdilər. Sonra bütün bunlardan təbliğat məqsədi üçün geniş istifadə edirdilər. Bəlli olur ki, artıq ermənilər Rusiyadakı bu imkanlarını itirirlər.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən siyasi ekspert Ramil Hüseynovun sözlərinə görə, Moskva kinoteatrlarında separatçı qurumla bağlı filmin nümayişinə qadağa qoyulması ermənilərə zərbədir: "Rusiyada ermənilərin bu kimi maneələrlə üzləşməsi bir sıra faktorlardan irəli gəlir. Əvvəla son illər Azərbaycanla Rusiya arasında siyasi münasibətlər daha da yaxşılaşıb. Tez-tez ikitərəfli müxtəlif rəsmi səfərlər baş tutur. İki ölkə arasında müxtəlif sahələrdə iqtisadi əlaqələr genişlənir. Nəqliyyat-tranzit daşımalarda tərəflər yaxından əməkdaşlıq edirlər. Digər tərəfdən, 2018-ci ilin aprelində Ermənistanda baş verən hakimiyyət dəyişikliyi və ondan sonra gedən bir sıra proseslər Moskva ilə İrəvan arasında münasibətlərdə müəyyən soyuqluğun yaranmasına səbəb olub. Kremlin maraqlarından çıxış edən "Qarabağ klanı"nın hakimiyyətdən uzaqlaşdırılması Moskvanı qane etmir. Paşinyanın nə qədər Rusiyayönümlü reveranslar etsə də, Kreml ona etibar etmir. Üstəgəl, Putinin istəyinə rəğmən, Paşinyanın əzəli düşməni olan keçmiş prezident Robert Köçəryanı həbsdə saxlaması Moskvanı qane etmir. Təbii ki, bütün bunlar Ermənistanın Rusiya müstəvisindəki təsir imkanlarına açıq və dolayı olaraq öz mənfi təsirini göstərir.

### *"...Azərbaycanın maraqlarına uyğundur"*

Bunun nəticəsidir ki, sözügedən bədnam filmin nümayişinə məhdudiyyət qoyulub. Əvvəlki dövr olsaydı, çox güman ki, ermənilər belə maneə ilə üzləşməzdilər. Hesab edirəm ki, belə halların baş verməsi ümumən Azərbaycanın maraqlarına uyğundur. O üzdən, maksimum bundan səmərəli istifadə etmək lazımdır. Rusiyadakı Azərbaycan diasporu daha aktiv fəaliyyət göstərməlidir. Belə olsa, o zaman erməni lobbisinin Rusiyadakı təsir imkanları əhəmiyyətli dərəcədə zəifləyə bilər".

***Vidadi ORDAHALLI***

# NATO Rusiyaya qarşı mövqeyini sərtləşdirməyə çalışırsa... "Görüş niyə Bakıda keçirilir" sualı aktuallaşır

**Dünyanın iki böyük geosiyasi güc mərkəzi olan ABŞ və Rusiyanın münasibətlərinin beynəlxalq nizama da əsaslı surətdə təsir göstərdiyi heç kimə sirr deyil. Bu fonda məsələyə NATO-nun da qarışması vəziyyətə daha çox təsir edir. Kremlin qiymətləndirməsinə görə, dünyanın ən güclü hərbi bloku Rusiyaya qarşı mövqeyini sərtləşdirməyə çalışır.**

Belə ki, Brüsseldə qəbul olunan qərarlar təşkilatın şərq cinahına doğru daha da irəliləməsini, Şərqi Avropada ABŞ-ın hərbi qüdrətinin artırılmasını nəzərdə tutur. Bunu Vaşinqton təşkilata üzv ölkələrin hərbi xərclərini artırması hesabına etmək fikrindədir. Aydın görünür ki, Şimali Atlantika alyansı nəinki hərbi ixtisara getmək niyyətində deyil, hətta daha qüdrətli hala gəlməyi düşünür. Moskvanın da buna cavab verəcəyi gözlənir. Bununla da dünya miqyasında hərbi qarşıdurma təhlükəsinin yarandığı aydın görünür. Amma hadisələrin bu səpkidə inkişafının Rusiya və NATO-nun özü üçün də təhdid yaratdığını tərəflər özləri də aydın görür. Bu səbəbdən onlar arasında dialoq qurulması da diqqət mərkəzindədir.




Artıq məlumat verildiyi kimi, Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimovla NATO-nun Avropadakı Birləşmiş Silahlı Qüvvələrinin baş komandanı Tod Volters arasında növbəti görüşün keçirilməsi planlaşdırılır. Bakıda baş tutacaq görüş barədə "RİA Novosti" özəl mənbəyə istinadla bildirir: "Bu həftə, çox güman ki, 6-7 fevralda Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimov NATO-nun Avropadakı Birləşmiş Silahlı Qüvvələrinin baş komandanı Tod Voltersin görüşü planlaşdırılır. Gündəm yalnız tərəflərə məlumdur. Bakı ənənəvi görüş yeri sayılır". Xatırladaq ki, Bakıda bundan öncə Rusiya-NATO formatında görüş keçən il noyabrın 26-da keçirilib. Həmin görüşdə Valeri Gerasimov və NATO Hərbi Komitəsinin rəhbəri marşal Stüart Piç Rusiya-NATO təmas xəttində insidentlərin qarşısının alınması tədbirlərini müzakirə edib.

Bu il baş tutacaq yeni görüş barədə isə elə Tod Volters özü ötən ilin sonlarında məlumat vermişdi. Onunla Valeri Gerasimov arasında Bakıda artıq bir dəfə görüş olub. Onların ilk görüşü 2019-cu ilin iyulunda Bakıda olub. Həmin vaxt tərəflər Rusiya ilə NATO məkanının təmas xətti boyu xoşagəlməz hadisələrin qarşısını almaq və ekspertlər səviyyəsində dialoq perspektivlərini müzakirə ediblər. Bununla yanaşı, Avropada və dünyada təhlükəsizlik məsələlərinə, terrorçuluq və dəniz quldurluğu ilə mübarizəyə, Əfqanıstanda, Suriyada vəziyyətə dair fikir mübadiləsi aparılıb. Tod Volters hələ də Bakı görüşlərinin tərəflər üçün mühüm əhəmiyyət kəsb etdyini vurğulayır. Bunlar isə generalların Bakı görüşlərinin nə dərəcədə mühüm əhəmiyyət kəsb etdiyini aydın göstərir.

Ekspertlər bildirir ki, Azərbaycan rusiyalı və amerikalı generalların görüşərək normal şəraitdə danışıqlar aparacağı ən münasib, neytral və əlverişli məkandır. Azərbaycan həm ABŞ, həm də Rusiya ilə normal, sürətlə inkişaf edən və tərəfdaşlığa söykənən siyasətin yürüdülüdüyü məkan kimi də qəbul edilir. Azərbaycan nə NATO-nun, nə də "MDB NATO-su" adlandırılan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvüdür. Bu isə Azərbaycana marağı artırır. Ekspertlər bütün bunları vacib sayır. Məsələ burasındadır ki, hazırda dünyanın müxtəlif bölgələrində nüfuz və maraq müharibəsi davam edir. Beynəlxalq ekspertlər də yeni dünya müharibəsinin addım-addım yaxınlaşdığı haqda həyəcan təbili çalır. Elə bu mənzərə fonunda dünyanı qlobal qəzadan xilas etmək üçün hərəkətə keçə biləcək, barışdırıcı, birləşdirici rolu üzərinə götürəcək qüvvəyə və bütün problemlərin müzakirə ediləcəyi məkana ehtiyac var. Bu qüvvə və məkan elə bir yer olmalıdır ki, bütün tərəflərlə uzlaşa bilsin, həmçinin, bütün tərəflərdə nüfuza sahib olsun. Azərbaycan məhz bu missiyanı üzərinə götürür.

Hələlik isə NATO-Rusiya münasibətlərinin hamar olmadığı çoxdan məlumdur. Şimali Atlantika alyansı, qeyd olunduğu kimi, Rusiyanın sərhədlərinə yaxınlaşır. Bunu dövlətin təhlükəsizliyinə təhdid kimi qiymətləndirən rəsmi Moskva cavab tədbirləri görür. Xüsusilə NATO-nun cənub və şərq cinahlarında Moskva ilə münasibətlər ağırdır. Daim qarşılıqlı hədələr və bəzi hallarda çox yaxın məsafələrdə edilən hərbi manevrlər bunu aydın göstərir. Lakin indiyə qədər Bakıda baş tutan görüşlər tərəflər arasında kəskin ziddiyyətlərin yaşanmasına yol verməyib. Ölkəmiz bu mənada regionda yeni əməkdaşlıq formatlarının əsas təşəbbüskarı kimi çıxış edir və bütün səylərini regionun inkişafı və rifahına yönəldir. Məhz bunlar fonunda Tod Voltersla Valeri Gerasimovun bir neçə gün sonra nəzərdə tutulan görüşünün yenə Bakıda təşkili dünya üçün vacib sayılır.

***Nahid SALAYEV***

# Saakaşvilidən qorxunc xəbərdarlıq... Ukraynanı dağıdıb 5 yeni ölkəyə böləcəklər



**Gürcüstanın keçmiş prezidenti Mixeil Saakaşvili Ukraynanın dağıla və 5 yeni ölkənin yarana biləcəyilə bağlı xəbərdarlıq edib.**

Baki-xeber.com xəbər verir ki, Saakaşvili bu barədə Ukrayna mediasına açıqlamasında deyib.

Ukrayna hökumətinin ölkənin siyasi sistemini ərazi bütövlüyünə və suverenliyinə xələl gətirməyəcək bir şəkildə düzəltməli olduğunu qeyd edən Gürcüstanın keçmiş prezidenti Saakaşvili Ukraynanın parçalana biləcəyini iddia edib:"Oğrulardan başqa separatçılar olacaq. Ukrayna həqiqətən parçalana bilər".

Saakaşvili ölkənin müxtəlif bölgələrində yerli oliqarxların öz ordularını qurduqlarını da deyib:

"Bu insanlar elə belə getməz. Onlar bir Ukraynanı beş Ukraynaya çevirmək üçün baza hazırlayır".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# "Azərbaycan Ermənistanın çox güvəndiyi Su-30 qırıcılarını sərçə kimi qıracaq" - keçmiş erməni nazir xəbərdarlıq etdi

**Hərb müstəvisində Azərbaycanın düşmən Ermənistanla müqayisədə gedərək artan üstünlüyü qarşı tərəfdə daha böyük ajiotaja səbəb olmaqdadır. Elə bu fonda ötən ilin sonunda Rusiya Su-30SM çoxfunksiyalı qırıcılarını Ermənistan ordusuna təqdim etsə də, bu hal düşmən ölkədə heç də böyük sevinclə qarşılanmır.**

Ermənistanın keçmiş baş naziri Qrant Baqratyan bildirir ki, Rusiyadan alınan Su-30SM təyyarələri ilə Azərbaycan üzərində qələbə qazanmaq mümkün deyil: "Biz perspektiv müharibədə hücum edə və məhv edə bilərikmi? Azərbaycan ordusunun gücü bizim imkanlarımızı minimum 2-3 dəfə üstələyir. Biz 450 tank, 2000 PDM və ZTR, 700 artilleriya sistemi, eləcə də 120 təyyarə və 150 helikopteri olan böyük güclə hesablaşmalıyıq". Baqratyan Azərbaycanın güclü hava hücumundan müdafiə sistemləri olduğunu və onların Su-30SM-ləri sərçə kimi vura biləcəyini söyləyib.

Cənubi Qafqazın geosiyasəti üzrə erməni mütəxəssis Anjela Əliyeva da eyni mövqedən çıxış edir. Erməni ekspert vurğulayır ki, Ermənistan Rusiyadan Su-30 qırıcıları əldə etdiyinə görə sevinməyə bilər, belə ki, 2020-ci ilin birinci yarısında Azərbaycan Hərbi Hava Qüvvələri də bu qırıcıları əldə edərək öz arsenalını zənginləşdirəcək. Onun sözlərinə əsasən, etibarlı mənbələrin məlumatına görə, Ermənistanın Su-30 çoxfunksiyalı təyyarələrini əldə etməsindən sonra Azərbaycan da Rusiya istehsalı olan bu qırıcıları alacaq:"Böyük ehtimalla, Azərbaycan tərəfi istədiyini əldə edəcək. Buna hazır olmalı və Rusiyanın yeni nəsil qırıcılarını Azərbaycana satmasına təəccüblənməməliyik. Azərbaycan münaqişəni hərbi yolla həll etməyə çalışır. Hazırda Azərbaycan, aprel döyüşlərindən sonra olduğu kimi, diplomatik alibi təmin etmək məqsədilə Minsk Qrupu həmsədrləri ilə fəal danışıqlar aparır. O zaman Azərbaycan genişmiqyaslı hücum təşkil etdi və heç bir beynəlxalq təşkilat rəsmi Bakıya qarşı çıxış etmədi".

"Alpari" informasiya-təhlil mərkəzinin rəhbəri Aleksandr Razuvayev İrəvanın diqqətli olmasının vacibliyini bildirir. Ekspertin sözlərinə görə, enerji gəlirləri Bakıya dünya silah bazarında özünü inamlı alıcı kimi hiss etməyə imkan verir: "Son 10 il ərzində Azərbaycan təqribən 5 milyard dollar məbləğində Rusiya silahı əldə edib. S-300 PMU-2 zenit raket sistemlərinin iki divizionunun, 100-ə qədər T-90S tankının və 118 ədəd BMP-3 piyada döyüş maşınının, 18 özüyeriyən "Msta-S" artilleriya qurğusunun, 18 ədəd "Smerç" yaylım atəşi reaktiv sistemlərinin işəsalma qurğularının və digər hərbi texnikanın alınması üçün müqavilələr imzalanıb. Azərbaycan və Rusiya prezidentləri İlham Əliyevlə Vladimir Putinin 3 oktyabr 2019-ci ildə Soçidə baş tutmuş görüşü zamanı hərbi-texniki əməkdaşlıq məsələləri də qaldırılıb". Şərhçinin sözlərinə görə, indi yeni və daha vacib anlaşma mümkündür: "Bakı Su-57-ləri alacaq ki, bu da Ermənistanın daha 8 qırıcını almaq şərti ilə 4 ədəd Su-30 SM qırıcısını əldə etməsinə cavabdır. Ermənistan kasıb ölkədir, ancaq KTMT üzvüdür. Maraqlıdır ki, Bakının əsas müttəfiqi olan Türkiyə də Su-57-lərə maraq göstərir". Rusiya hərbi sənaye kompleksindəki mənbə də bildirib ki, Azərbaycan Rusiyanın Su-57 tipli ən modern beşinci nəsil qırıcı təyyarələrini almağa maraq göstərir. Bundan başqa, Azərbaycanın hava hücumundan müdafiə sisteminin də kifayət qədər böyük gücə malik olduğu vurğulanır. Eşelonlaşdırılmış, çoxfunksiyalı hava hücumundan və raketdən müdafiə sisteminə, uzaqmənzilli aviasiya məhvetmə silahlarına, raket qoşunlarına malik Azərbaycan ordusu düşməni yalnız havada deyil, hətta onların daimi dislokasiya yerlərində də məhv etməyə qadirdir. Ölkəmizin hava hücumundan müdafiə sistemində həm sovet istehsalı, həm də Qərb sistemi olan zenit-raket kompleksləri, radar sistemləri yer alır. Bu gün Azərbaycan postsovet ölkələri arasında hava hücumundan müdafiə sisteminə görə Rusiyadan sonra ən yüksək səviyyədədir. Hərbi Hava Qüvvələrinin silahlanmasına uzaqmənzilli S-300 PMU-2 "Favorit", "Buk-MB", orta mənzilli S-125 "Peçora TM-2", "Osa-AKM", "Spider", qısa mənzilli "Kruq", "Strela" və digər komplekslər daxildir. Azərbaycan İsraildən bir divizion "Barak-8" kompleksi də əldə edib. Ölkəmizdəki belə sistemlər ballistik və aerodinamik hədəfləri məhv etmək imkanına malikdir. S-300 PMU2 uzaq mənzilli zenit-raket divizionları, paytaxt Bakı və Xəzər dənizi akvatoriyasındakı strateji idarəetmə obyektləri ilə yanaşı, Azərbaycanın əsas və ehtiyat aviabazalarının, sursat anbarlarının və hərbi dəniz bazalarının hava hücumundan və taktiki raket zərbələrindən müdafiəsini təşkil edir. Hadisələrin gedişi isə, ümumiyyətlə, Azərbaycanın da S-400-lərə malik ola biləcəyini istisna etmir. Bu isə ölkənin hava hücumundan müdafiə qabiliyyətini daha da artıracaq. Aydındır ki, belə vəziyyətdə Dağlıq Qarabağ münaqişəsinin hərbi həlli Ermənistanın qısa zaman kəsiyndə məğlubiyyəti deməkdir.

Digər tərəfdən o da faktdır ki, Rusiyadan Ermənistana verilən hərbi texnika çox vaxt ya istismardan çıxarılmış olur, ya da günün tələblərinə cavab vermir. Eyni şey Su-30SM qırıcılarına da aiddir. Azərbaycan Hərbi Hava Qüvvələrinin döyüş imkanlarının hesablanması üzrə mütəxəssisi, ehtiyatda olan polkovnik Oqtay Bədəlov bu xüsusda "report"a maraqlı faktlar açıqlayıb:"Ermənistanın Rusiyadan əldə etdiyi Su-30 nəslindən olan qırıcı təyyarələrin müxtəlif modifikasiyalarının qəzaya uğraması barədə bu günə kimi iyirmidən artıq fakt məlumdur". Onun sözlərinə görə, Su-30 qırıcılarının qəzaya uğraması hallarının artmasından başqa onların döyüş keyfiyyətlərinin köhnəliyi və müasir standartlara cavab verməməsi də diqqət çəkir:"Maraqlı bir faktı açıqlayım. Məsələn, keçən əsrin 90-cı illərindən Su-30MKİ qırıcıları Hindistan HHQ-nin silahlanmasında əsas yerlərdən birini tutur. Hindistanda Su-30MKİ qırıcılarının iştirakı ilə baş verən aviasiya qəzaları və insidentlərin 10 faizindən çoxu məhz bu tip təyyarələrin quş sürüsü ilə toqquşması nəticəsində baş verib. Müasir dünyada baş verən silahlı münaqişələrdə istifadəsi çətin və təhlükələrə qarşı perspektivsiz olan Su-30-ların istismarı da çox baha başa gəlir. Belə ki, qırıcının bir saat uçuşuna sərf olunan məbləğ təqribən 50 min ABŞ dollarından artıqdır. Manevr imkanlarının məhdud və istismarının baha olması cari ilin mart ayından "Hindustan Aeronautics" şirkəti tərəfindən bu tip təyyarələrin istehsalını dayandırması barədə qərar verməsinə səbəb olub. Daha bir fakt isə Malayziya HHQ-nin də silahlanmasında 28 ədəd Su-30-dan yalnız 4-nün döyüş qabiliyyətli olmasıdır. Digərləri isə bərpa olunması məqsədilə uzun müddətdir təmir zavodlarında saxlanılır". Ekspertin fikrincə, bu günə qədər baş vermiş qəzalar bir daha onu göstərir ki, heç də Ermənistanın ağızdolusu danışdığı Su-30 qırıcı təyyarələri şişirdiləcək qədər döyüş imkanlarına malik deyil:"Bu səbəbdən, Su-30 təyyarələri ilə bağlı Ermənistan hərbi-siyasi rəhbərliyinin səsləndirdiyi fikirlər erməni ictimaiyyətində mənəvi-psixoloji baxımdan tamamilə çökmüş ordunun nüfuzunun artırılması istiqamətində atılan addım olaraq qiymətləndirilməlidir".

Qeyd edək ki, yanvarın 27-də Əlcəzairin şimal-şərqindəki Umm əl-Buaqi vilayətində Rusiya istehsalı olan Su-30SM qırıcı təyyarəsinin naməlum səbəbdən qəzaya uğraması xəbəri bu tip aviasiya vasitələrinin təhlükəsizliyinin şübhə doğurduğu barədə mülahizələri növbəti dəfə gündəmə gətirib. Yayılan məlumata görə, qırıcıda olan hər iki pilot katapult edə bilməyərək həlak olub. Bu fonda Ermənistan üçün daha bir problem odur ki, bu ölkəyə də müasir tələblərdən uzaq təyyarələr verilib. Eyni zamanda bu təyyarələri Ermənistanda yenə tələbələrə uyğun şəkildə idarə edən pilot da yoxdur. Amma Azərbaycanda vəziyyət tamam fərqlidir.

Bu gün Azərbaycan ordusunun arsenalında olan silah-sursata və texnikaya dünyanın əksər dövlətlərinin orduları həsəd apara bilər. Hazırda Azərbaycan Silahlı Qüvvələri regionun qüdrətli hərbi gücüdür. Ən mühümü odur ki, ölkəmiz işğalçı Ermənistan qarşısında əzici üstünlüyə malikdir. Bunu ötən illərdə baş vermiş bir sıra hadisələr də təsdiqləyir. 2014-cü ilin avqust hadisələri, 2016-cı ilin aprel döyüşləri və Naxçıvanda Günnüt zəfəri Azərbaycan Silahlı Qüvvələrinin gücünün praktik təsdiqidir. Son iki döyüşdə ordumuz əlverişsiz mövqelərdən çıxaraq strateji mövqelərə sahib oldu. Bu strateji yüksəkliklər, mövqelər, işğaldan azad edilmiş ərazilər imkan verir ki, təmas xəttində mövcud olan vəziyyətə tam nəzarət edilsin və istənilən tədbir görülsün. Cənubi Qafqazın ən qüdrətli ordusuna malik Azərbaycanın Silahlı Qüvvələri öz döyüş hazırlığına görə MDB məkanında ön sıralarda gedir. Həmçinin beynəlxalq reytinq agentliklərinin hesabatlarında Silahlı Qüvvələrimiz dünyanın güclü, müasir standartlara uyğun yenidən qurulan və təchiz edilən orduları ilə bir sırada yer alır. Bundan başqa, ölkəmizdə yaradılan müdafiə sənayesi kompleksi Azərbaycanda ən müasir hərbi texnikanın istehsalına geniş imkanlar yaradır. Təsadüfi deyil ki, indi Azərbaycanda istehsal olunan silah-sursat növləri öz göstəricilərinə görə fərqlənir və bir sıra orduların arsenalında yer alır. Məhz bu durumda Azərbaycan düşmənlə müqayisədə daha böyük üstünlüyə malikdir və belə vəziyyət Qarabağ münaqişəsinin həllinə də təsirsiz ötüşmür.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**İstehlak kreditlərinin sürətli artımı hökumət səviyyəsində artıq ciddi narahatlıq mənbəyi kimi qarşılanır. Araşdırmalar göstərir ki, bankların kredit portfelinin artıq yarısını yenə istehlak kreditləri təşkil edir. Real sektora yönəldilən kreditlərin həcmi isə azdır.**

# Banklar üzə durub - Elman Rüstəmov da bacara bilmir, yeni qanuna əl atıldı...

Elə bu səbəbdən ölkədə istehlak kreditlərinin verilməsinin məhdudlaşdırılması nəzərdə tutulur. Mərkəzi Bankın sədri Elman Rüstəmov da keçirdiyi son mətbuat konfransında bu məsələyə toxunub.

Mərkəzi Bankın sədri son vaxtlarda istehlak kreditlərinin artması məsələsinə də toxunaraq deyib ki, bunun qarşısı alınacaq. Elman Rüstəmov biznes kreditlərinə çıxışın asanlaşdırılması istiqamətində görülən işlərə də toxunaraq xatırladıb ki, bir müddət əvvəl sahibkarlarla görüş keçirilib. Bankların nümayəndələri ilə birgə biznes kreditlərinə çıxışa mane olan səbəblər müzakirə edilib. Bu fonda real sektora verilən kreditlərin artırılması, istehlak kreditlərinin isə məhdudlaşdırılması nəzərdə tutulur. Ekspertlər də bunu vacib sayır. Hətta fikirlər səslənir ki, artıq "İstehlak kreditləri haqqında" qanun layihəsinin hazırlanmasına ehtiyac var. Burada da elə qaydalar olmalıdır ki, verilən kreditlər istehlaka deyil, daha çox istehsala yönəldilsin. Çünki real vəziyyətdə iqtisadi canlanma olan kimi banklar dərhal istehlak sektoruna yönəlir. Bu, iqtisadiyyat üçün normal hal sayılmır. Xüsusilə də Azərbaycan kimi inkişaf etməkdə olan ölkə üçün istehlakı yox, istehsalı kreditləşdirmək vacib sayılır və hökumətin də əsas istəyi məhz budur. Bu səbəbdən hesab olunur ki, qeyd olunan xüsusda ayrıca qanun olmalı və istehlaka yönəldilən kreditlər məhdudlaşdırılmalıdır. Kreditlər əsas etibarı ilə real, istehsal sektoruna yönəlməlidir.

Faktdır ki, fiziki şəxslərin problemli kreditlərinin həllinə dövlət dəstəyi veriləndən sonra bank sistemi bir qədər sabitlik əldə edib. Amma fiziki şəxslərin kreditləri ilə bağlı fərmandan sonra yenidən ölkədə istehlak krfeditləşməsinin həcmində kəskin artım müşahidə olunmaqdadır. İstehlak kreditləşməsinin yüksək olması problemli kreditləri artıran səbəblərdən biridir. Belə vəziyyət bankların özü üşün də təhdid yaradır. Bu fonda ekspertlər bildirir ki, bank sisteminin böhrandan tam qurtulması üçün onlar iqtisadiyyatın real sektoruna daha çox vəsait ayırmalıdır. Real sektorun aktivləşməsi başlanan kimi bank sistemində də canlanma sürətlənəcək. İndilikdə isə ekspertlər bildirir ki, bankların yenidən istehlak kreditlərinə maraq göstərməsi ciddi təhdidlər yaradır. İlk növbədə ona görə ki, bu, real sektorun kreditlərə olan tələbinin ödənilməsinə imkan vermir. Digər tərəfdən, istehlak kreditləri problemli kreditlərin artımının əsas mənbəyi sayılır. Ona görə də istehlak kreditlərinin həcminin artması risqlidir. Bu zaman banklar həm də xarici şoklara reaksiya verə bilmir, əhalinin gəlirlərinin strukturunda dəyişiklik baş verdiyi halda problemli kreditlərin həcminin artması müşahidə olunur.

Məsələnin təhdid yaradan tətrəflərindən biri də budur ki, bankların faiz siyasəti də həm istehlak kreditlərini artırır, həm də əhalinin əmanətlərini banklardan uzaq salır. Araşdırmalar da göstərir ki, hazırda kommersiya banklarının əmanət portfeli ilə kredit portfeli arasında faizlər baxımından yenə kəskin fərq var. Bu barədə danışmazdan öncə qeyd edək ki, bankların vətəndaşlardan cəlb etdiyi əmanətlər ümumi kredit qoyuluşlarının 65 faizini təşkil edir. Bu isə o anlama gəlir ki, bankların təklif etdiyi hər 100 manatdan 65 manatı vətəndaşdan cəlb edilən vəsaitlərdir. Amma buna rəğmən, kredit faizləri ilə depozit faizləri arasında kəskin fərq var. Orta hesabla banklar manatla depozitlərə 7 faiz, xarici valyutada olan depozitlərə hətta 1 faizdən az dividend təklif edirlər. Halbuki, kreditlər üzrə faiz dərəcələri tamamilə fərqlidir. Milli valyutada kreditlər üzrə faiz dərəcələri 25-30 faizədək yüksəlir. Xarici valyutada kredit faizləri 15 faiz ətrafında dəyişir. Belə şəraitdə, ekspertlərin fikrincə, əmanət faizləri ilə kredit faizləri arasındakı nisbətin yol verilən həddə qorunub saxlanmasına ehtiyac var. Çünki yuxarıda qeyd olunduğu kimi, əmanətlər bankların cəlb etdiyi vəsaitlərin içərisində xüsusi paya malikdir. Hesab olunur ki, bu şəraitdə banklar kredit faizlərini azaldıb, əmanət faizlərini artırsalar, vətəndaşların əlində olan vəsait, ilk növbədə də manat vəsaiti banklara və beləliklə iqtisadiyyata cəlb oluna bilər. Amma indiki vəziyyət bankların yenə də daha çox gəlir əldə etməyə çalışmasıdır. Yəni qısa müddətə daha çox gəlir əldə etmək prinsipi banklar üçün prioritet olaraq qalmaqda davam edir. Bu özünü kredit strukturunda da göstərir.




**Belə ki, yuxarıda vurğulandığı kimi, bankların təklif etdiyi kreditlərin yarısı istehlak kreditləridir. Özü də bu rəqəm artmaqda davam edir. Belə vəziyyət potensial əmanətçiləri də bank sektorundan uzaqlaşdırır. Bu isə iqtisadiyyata hansısa ciddi fayda vermir. Nəticə etibarı ilə də iqtisadiyyata dəstək azalır. Bu baxımdan banklarda əmanətlərin həcminin artması çox əhəmiyyətlidir. Amma bunun üçün bankların faiz siyasətinə də düzəlişlər olunmalıdır. Eyni zamanda real sektor üçün kredit faizləri aşağı salınmalıdır.**

***Ramil QULİYEV***

Bu gün öz qorxunc caynaqlarını dünyaya uzadan koronavirusun Çində meydana çıxması və bu ölkənin insanlarına ölüm təhlükəsi saçması, həyatlarına son qoyması mənşəyi məlum olmayan bu virusun qəsdən Çinə yeridilməsi, burada yayılması ilə bağlı şübhəli fikirlər dolaşır.

# Qorxulu Çin virusunun siyasi mənşəyi barədə şübhələr - Çinin iqtisadiyyatına neçə milyard ziyan vuruldu...




***Natiq Cəfərli:** "Koronavirusa görə Çin iqtisadiyyatına ciddi ziyan dəyib, bundan sonra da dəyəcək"*

Belə bir şübhələr var ki, bu virusun Çində peyda olmasını reallaşdıran qüvvələrin, Çin vətəndaşlarının bu virusa yoluxmasını təşkil edənlərin, əslində, məqsədi bununla Çin iqtisadiyyatına güclü zərbə vurmaqdır. Məlumdur ki, bu gün dünyada ən güclü iqtisadiyyata malik olan ölkələrdən biri Çindir və dünyanın hər bir yerinə Çindən müxtəlif məhsullar ixrac edilir.

Ekspertlər hesab edirlər ki, koronavirusun Çində peyda olmasını "layihələşdirən" qüvvələr var və həmin qüvvələr bununla Çin iqtisadiyyatını çökdürmək, Çin mallarının nüfuzunu aşağı salmaq niyyəti güdürlər.

Tanınmış iqtisadçı-ekspert Natiq Cəfərli bildirdi ki, bu şübhələr artıq gündəmdədir: "Əslində, koronavirusun bioloji bir hücum olması ehtimalı ilə bağlı dünya mediasında kifayət qədər material çap olunur, müxtəlif mülahizələr səsləndirilir. ABŞ və Çin arasında ticarət və valyuta müharibələrinin, danışıqların getdiyi bir dövrdə bu virusun yayılması şübhələri və ehtimalları daha da artırır. Amma, açığı, bu virusun bioloji silah kimi istifadə edilməsi ehtimalının çox aşağı olduğunu düşünürəm. Çünki çox təhlükəli bir məsələdir. Bu elə bir təhlükəli virusdur ki, hava vasitəsilə, özü də çox yayılır. Artıq ətraf ölkələrə də yayılıb. Amerikanın özündə də, artıq səhv etmirəmsə, 4, Avropanın müxtəlif ölkələrində isə 20-yə yaxın belə yoluxmanın olduğu görünür. Yəni dediyim odur ki, bu ehtimalların özünü doğrultması o qədər də inandırıcı deyil".

N.Cəfərli vurğuladı ki, Çin iqtisadiyyatı ayrı-ayrılıqda götürülmüş bir ada deyil və o, dünya iqtisadiyyatı ilə kifayət qədər inteqrasiya olunmuş bir vəziyyətdədir: "Ona görə də düşünürəm ki, koronavirusun Çində yayılmasına baxmayaraq, bu, bütün dünya iqtisadiyyatına mənfi təsir göstərir, o cümlədən də bu, Amerika və Avropa ölkələrinə də mənfi təsirsiz ötüşmür. Bunun nəticəsində həm ticarət dövriyyəsi, həm də turist sayı azalır. Yeri gəlmişkən, Çin dünyada ən çox turist göndərən ölkədir. Yəni hər il təqribən 180 milyona yaxın Çin vətəndaşı Avropa və Amerikaya səfərlər edir, onlar təxminən 70-80 milyard dollara yaxın bu səfərlər zamanı vəsait xərcləyirlər. Koronavirusun yayılması Avropanın da turistik şəhərlərinin, o cümlədən, Paris, Roma, Londonun boş qalmasına səbəb olub, Amerikaya səfərlər azalıb. Təkcə Çin deyil, Avropa və Amerika ölkələri də koronavirusdan ciddi iqtisadi ziyan görürlər. Ona görə də mən yayılan ehtimalların düzgün olduğuna inanmıram. Təbii ki, koronavirusa görə Çin iqtisadiyyatına ciddi ziyan dəyib, bundan sonra da dəyəcək, çünki bu ölkədə istehlak və istehsal azalır, bu da bütün dünyaya təsir göstərir. Dünyanın səhm bazarlarına baxdıqda görürük ki, koronavirus yayılandan Amerika, Avropa səhm bazarlarında ciddi ucuzlaşma var. Bu ucuzlaşma həmin ölkələrin iqtisadiyyatlarına mənfi təsir göstərir".

*"...Avropa və Amerika ölkələri də koronavirusdan ciddi iqtisadi ziyan görürlər"*

***İradə SARIYEVA***

Evə gələndə Nigarı soruşdu. Həmişə onu uşaq sevinci ilə qapıda qarşılayan qızı gözə dəymirdi. Ömür-gün yoldaşı: "Otağındadır",- deyib dərindən köks ötürdü. "Axı nə olub" sualını verməmişdən əvvəl beyninə yüz fikir gəldi. Fikirləşdi ki, yəqin dərslərində kəm-kəsiri var.

# Telefon...



Bəlkə də imtahandan "kəsilibdi". Ancaq sonradan yadına düşdü ki, hələ imtahanlar başlamayıb. Eşidəndə ki, qızın telefonunu oğurlayıblar yaman pərt oldu. Heç bir həftə deyildi ki, telefonu almışdılar.

Qıza bir söz demədi. Amma onun laqeydliyinə əsəbləşmişdi: "Bu boyda qız bir telofona sahib çıxa bilmir, adam əmlakına qarşı bu qədər biganə olmaz. İndinin uşaqları alınanın hansı çətinliklər bahasına əldə olunduğunun heç fərqinə varmırlar".

Ancaq olan olmuşdu. Qız sarsıntı keçirmişdi. Hadisənin necə baş verməsini soruşmaq üçün bir yol axtarırdı. Əvvəlcə özü onu sorğu-suala çəkmək qərarına gəldi. Hadisə harda oldu, nə vaxt oldu, yanında özünü şübhəli aparan kimsə vardımı?

Nigar heç bir suala cavab vermir, elə hey ağlayırdı. Birdən: "Ata, mən o telefonu almaq üçün sənin hansı əziyyətlərə qatlaşdığını, evə gecə saatlarında yorğun-arğın gəldiyini görmüşəm. Vicdansızın biri sənin yuxusuz gecələrini, əsəblərini oğurladı o telefonla. Bax, bunu özümə bağışlaya bilmirəm",- deyəndə övladını bağrına basdı…

O yalnız filmlərdə, seriallarda polis olurdu. Həyatda isə...

Və bu obrazı yaradanda, o mundiri əyninə geyinəndə onu qəribə hisslər bürüyürdü. Bu dəfə o, polis kimi kömək edə bilməyəcəkdi...

"102" Xidməti Zəng Mərkəzinə zəng vurub hadisənin harada baş verməsi barədə məlumat verdikdən sonra bir azca toxtadı. Üstündın bir neçə dəqiqə keçməmiş onu Nərimanov RPİ-nin 18-ci Polis Şöbəsinə dəvət etdilər. Qızı da onunla birlikdə idi. Nigar başına gələni izahatında yazdı.

Şöbədən çıxanda bir az toxtadı. Şöbə rəisi, polis polkovnik-leytenantı Bayram Alıyevin: "Narahat olmayın, o telefon tapılacaq və sizə qaytarılacaq" fikri hər ikisini ümidləndirmişdi...

Telefondan hələ xəbər yox idi. Nigarın, demək olar ki, hər gün: "Ata, görəsən telefonum tapılacaqmı" sualı içini qurd kimi gəmirirdi. O isə "Tapılacaq, qızım, özü də lap tez tapılacaq" deməklə həm özünə, həm də qızına təsəlli verirdi.

Bir gün dözməyib yenidən polis polkovnik-leytenantı Bayram Alıyevə zəng vurdu və onun: "Narahat olma, qardaş, bu işlə, gənc olsalar da, peşəkar əməliyyatçılar məşğul olur" fikrindən sonra işin açılacağına tam əmin oldu.

Polis isə iş başında idi. Ötən müddət ərzində əməliyyatçılar Nigarın hansı avtobusla getdiyini müəyyən etmiş, avtobusdakı görüntüləri bircə-bircə incələmişdilər. Çiynində çanta olan şübhəlinin avtobusdan düşdükdən sonra qaçaraq metroya girməsi polis baş leytenantı, baş əməliyyat müvəkkili İsmayıl İsmayılovun nəzərindən qaçmamışdı. Həmkarı, əməliyyat müvəkkili, polis leytenantı Zaur Qasımov təcili olaraq Bakı Şəhər Baş Polis İdarəsinin Metropolitendə Polis Şöbəsinin əməkdaşlarını da məsələ ilə bağlı məlumatlandırmışdı. Demək olar ki, şübhəli tam nəzarətdəydi. Onun mütəmadi olaraq metrodan istifadə etməsi, əslində, diqqətçəkən idi. Araşdırmalar zamanı bəlli oldu ki, həmin şəxs hansısa şirkətdə "kuryer"dir. Ancaq hələ tələsmək olmazdı. Hər bir xırda detal işin açılmasına kömək edə bilərdi... Gecə saatlarında gələn mesaj onları sevindirdi. Bu da əməliyyatçılar üçün ipucu idi...

Metrodan hər gün istifadə edən şübhəli neçə vaxt idi ki, gözə dəymirdi. O, polislərin onu izləməsini hiss etmişdi. Buna görə də yaxasını ələ verməmək istəmirdi. Əməliyyatçılar mobil operatorlarla da mütəmadi olaraq əlaqə saxlayırdılar. Və günlərin bir günü...

Əvvəlcə boynuna almaq istəmədi. "Məni bura heç bir əsas olmadan, səbəbsiz yerə gətirmisiniz",- deyib polislərin üstünə çəmkirdi də. Ancaq görüntülər ona təqdim olunanda susdu. Handan-hana, guya ehtiyacı olduğu üçün telefonu avtobusda bir qızın paltosunun cibindən çıxardığını etiraf etdi.

Bu dəfə polisdən gələn zəngin onlara ya ümid, ya da ki, ümidsizlik bəxş edəcəyini göz önünə alıb telefona könülsüz halda cavab verdi. Sağollaşandan sonra qızını bağrına basdı: "Qızım, polislərimiz məni sənin yanında utandırmadı. Onlar bizim rahatlığımız üçün gecəligündüzlü xidmətdədirlər, dinclik nədir bilməzlər. Sabitliyimiz, əmin-amanlığımız etibarlı əllərdədir",- deyib eyvana çıxdı. Qışın soyuğunda xidmət aparan polislərə baxıb əllərini göyə qaldırdı...

Ertəsi gün sanki quş qanadında 18-ci Polis Şöbəsinə gəldilər…

***Hafiz TƏMİROV***
***polis polkovnik-leytenantı***

# Bank sektorumuzda yeni növ kreditlər problemi - şübhəli kreditlər nədir...

**Məlum olduğu kimi, Nazirlər Kabineti tərəfindən "Azərbaycan Respublikası Prezidentinin sədrliyi ilə keçirilən 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədən irəli gələn tapşırıqların icrasının təmin edilməsi üzrə Tədbirlər Planı" qəbul edildi.**

*"Gərək bu məsələdə elə bir mexanizm yaradılsın ki, bunun sayəsində şübhəli kreditlərin verilməsinin qarşısını almaq mümkün olsun"*

## Rəsul Cahangirli: *"Burada söhbət bankların qabaqcadan əlbir olduqları şəxslərə verdikləri kreditlərdən gedir"*

Sözügedən Tədbirlər Planında Mərkəzi Bank, İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyinə 2020-ci ilin sonunadək bank sektorunun real sektoru dəstəkləməsi, biznes kreditlərinin verilməsi və faizlərin aşağı salınması istiqamətində müvafiq tədbirlərin görülməsi tapşırılıb.

Həmçinin, Tədbirlər Planında Azərbaycanda şübhəli kreditlərin verilməsinə nəzarətin gücləndirilməsi öz əksini tapıb. Belə ki, sözügedən Tədbirlər Planına əsasən, Mərkəzi Bank 2020-ci ilin iyul ayınadək bank sektorunda, o cümlədən, şübhəli kreditlərin verilməsinə nəzarətin gücləndirilməsi üzrə müvafiq tədbirlər görməlidir.

Maraqlıdır, şübhəli kreditlərə nəzarət deyiləndə konkret söhbət hansı vəsaitlərdən gedir? Hansı kreditlər şübhəli kreditlər hesab olunur?

Sözügedən məsələyə aydınlıq gətirən ekspert Rəsul Cahangirlinin sözlərinə görə, burada söhbət bankların qabaqcadan əlbir olduqları şəxslərə verdikləri kreditlərdən gedir: "Hansı ki, banklar bilərəkdən belə kreditlər verirlər. Hamıdan yaxşı bilirlər ki, verilən kredit geri qayıtmaz, sadəcə, müəyyən qanunsuz sövdələşməyə gedərək, nəyinsə müqabilində belə kreditlər verirlər. Yəni korrupsiya müqabilində şübhəli kreditlər verilir. Öz yaxınlarına, qohumlarına, dost-tanışlarına belə kreditlər verilib. Nəticədə problemli kreditlərin miqyası artıb. Bəzi məlumatlara görə, hazırda ölkədə problemli kreditlərin əksəriyyəti şübhəli kreditlərdir. Bunlar əhalinin və sahibkarların götürdüyü kreditlər deyil. Banklar maliyyə vasitəçiləridir və bunlar əhalidən və sahibkarlardan əmanət cəlb edirlər və




sonra onu kimə istəyirlər, verirlər. Şübhəli kreditlər müxtəlif formada verilir. Belə kreditlər adətən uzun müddətə və aşağı faizlə verilir. Bu cür kreditlər aşağı dəyərli girovlar müqabilində verilir.

Yaxud da girovun dəyəri kağız üzərində şişirdilir. Əslində isə girovun dəyəri çox aşağı olur. Bütün bunların nəticəsində iqtisadiyyatın real sektoru kreditlərdən kənarda qalır. Hansı ki, ehtiyacı olan sahələr kənarda qalır, lazım olmayan sahələrə kreditlər verilir.

Ona görə də Tədbirlər Planında məqsəd odur ki, bu cür kreditlərin verilməsinin qarşısı alınsın. Ancaq gərək bu məsələdə elə bir mexanizm yaradılsın ki, bunun sayəsində şübhəli kreditlərin verilməsinin qarşısını almaq mümkün olsun. Yoxsa, bundan sonra da şübhəli kreditlərin verilməsinin qarşısını almaq mümkün olmayacaq".

**Vidadi ORDAHALLI**

# Fiziki şəxslər pullarını depozit kimi banklara daha çox etibar edirlər

**Azərbaycan iqtisadiyyatında müşahidə olunan inkişaf tendensiyası bütün sferalarda özünü göstərir. İstər neft, istərsə də qeyri-neft sektorunda qeydə alınan artımlar bu qənaətə gəlməyə əsas verir. Açıqlanan statistik rəqəmlərə əsasən, son zamanlar banklara yatırılan əmanətlərin həcmi artıb.**

*"Manatın məzənnəsi stabil qaldığı üçün milli valyuta ilə yığımlara maraq artıb"*

## Əli Əlirzayev: *"Əhalinin gəliri artdıqca, banka yerləşdirilən əmanətlərin həcmi də artır"*

Məlumat üçün bildirək ki, 2019-cu ilin dekabr ayında Azərbaycanda əmanətlərin ümumi həcmi 24,746 milyard manat təşkil edib ki, bu da 2018-ci ilin müvafiq dövrünə nisbətən 11,6 faiz çoxdur.

Azərbaycanın Mərkəzi Bankının hesabatına istinadən verdiyi məlumata görə, qeyri-maliyyə təşkilatlarının əmanətlərinin həcmi 2018-ci ilin dekabr ayına nisbətən 16,9 faiz artaraq 14,381 milyard manat olub. Fiziki şəxslərin əmanətlərinin həcminə gəldikdə isə burada da 3 faiz, 8,64 milyard manata qədər artım müşahidə olunur.

2019-cu ilin dekabr ayının nəticələrinə görə, xarici valyutadakı əmanətlər 2018-ci ilin eyni dövrü ilə müqayisədə 5,3 faiz artaraq 15,09 milyard manat təşkil edib.

Milli valyutadakı əmanətlər də 2018-ci ilin dekabr ayına görə 21,5 faiz artaraq 9,6655 milyard manata çatıb.

Fiziki şəxslərin əmanətlərinin həcminin artmasının ekspertlər gözlənilən olduğunu düşünürlər.

İqtisadçı-ekspert Əli Əlirzayev bildirdi ki, əhalinin gəlirləri artır. Gəlirlər artdıqca, bu, banklarda manatla olan depozitlərin həcminin artmasına öz təsirini göstərir. Digər tərəfdən, banklarda milli valyuta ilə bağlı daha yüksək dividendin təklif olunması buna öz təsirini göstərir. Nəzərə almaq lazımdır ki, milli valyutada qorunan əmanətlər 15 faiz təşkil edir. Xarici valyutada qoyulan



əmanətlərdə isə bu rəqəm bir neçə dəfə aşağıdır.

Bütün bunlar da, öz növbəsində, əhalini manatla yığımlar etməyə təşviq edir. Onları stimullaşdırır və təşviq edir ki, depozitləri manatla banka qoysunlar:

"Manatın məzənnəsi stabil qalıb. Bu amil milli valyuta ilə yığımlara marağın artmasına gətirib çıxarıb. Əvvəlki dövrlərdə dollarla olan əmanətlərin artması manatın devalvasiyası ilə bağlı idi. Manatın məzənnəsi stabilləşdiyi üçün, bu təhlükə arxada qalıb".

**Günel CƏLİLOVA**

# Sosial ipoteka ilə alınan evlərin sayı azalır - Bakıda sosial ipotekadan imtina edilir...

**20-25 il əvvəl evsizlik problemi daha çox gənc ailələrə şamil edilirdisə, indi əhatə dairəsinin genişləndiyini, orta yaş həddində olan nəslin arasında da bu dairəyə düşənlərin kifayət qədər olduğunu demək olar.**

*"Kirayə layihəsinin adi ipoteka layihəsindən fərqi odur ki, burada Fondun təqdim etdiyi konkret mənzillər nəzərdə tutulur"*

Dövlət tərəfindən bu istiqamətdə müxtəlif layihələr həyata keçirilsə də, həmin layihələrdən yararlananların sayı o qədər də böyük deyil.

Açıqlanan statistik rəqəmlərə əsasən, 2019-cu ildə Azərbaycanda İpoteka və Kredit Zəmanət Fondunun (İKZF) xətti ilə 173,3 milyon manat ipoteka krediti verilib. Qeyd edək ki, bu, 2018-ci illə müqayisədə 36,4% azdır. Mərkəzi Bankın xəbərinə görə, ötən il Fondun yenidən maliyyələşdirdiyi kreditlərin məbləği isə illik müqayisədə 9,8% azalaraq 220,4 milyon manata, qiymətli kağızlar bazarında istiqraz buraxmaq yolu ilə cəlb etdiyi vəsaitlərin məbləği isə 25% azalaraq 150 milyon manata düşüb. Hesabat dövründə İKZF-yə dövlət büdcəsindən ayrılmış vəsait isə 20% azalaraq 80 milyon manat olub.

Ekspertlərin fikrincə, ipoteka alınan mənzillərin sayının azalmasının məlum səbəbləri var. İlk olaraq bildirək ki, sosial evlər və kirayə mənzil layihəsi ipoteka ilə alınan mənzillərə marağı azaldıb.

Əmlak məsələləri üzrə ekspert Nüsrət İbrahimli bildirdi ki, ötən il Azərbaycanda İpoteka və Kredit Zəmanət Fondu yeni layihənin - kirayə mənzil layihəsinin icrasına başlayıb: "Satmaq öhdəliyi ilə kirayə mənzillərin alınması Fondun balansı hesabına reallaşıb. Yəni həmin mənzillər nağd vəsaitlər hesabına alınıb. Fondun maliyyə resurslarının bir hissəsi həmin mənzillərin alınmasına yönəlib deyə, birbaşa ayrılan kreditlərin həcmi azalıb".

Həmsöhbətimiz hesab edir ki, kirayə mənzillər ipoteka kreditlərinə olan marağı azaltmayıb: "Çünki kirayə layihəsinin adi ipoteka layihəsindən fərqi odur ki, burada Fondun təqdim etdiyi konkret mənzillər nəzərdə tutulur. Məlumdur ki, bunlar konkret 4 ünvanda olan mənzillərdir. Bu heç də bütün alıcıların zövqünə və tələbinə uyğun deyil. Heç də hər kəs eyni yerdən mənzil almaq fikrində olmaya bilər. Ona görə də adi qaydada ipoteka kreditləri almaq istəyən vətəndaşlar var.

**Bizdə olan məlumatlara görə, bununla bağlı banklara kifayət qədər müraciət var, həmin şəxslər yeni kredit xəttinin açılmasını gözləyirlər. Yəni tələbat azalmayıb. Onu da deyim ki, kirayə mənzil mexanizmi aztəminatlı ailələr üçün daha əlverişlidir. Amma 30 faiz ilkin ödənişi etmək imkanı olanlar ipoteka götürməyə meyllidirlər".**

***Nüsrət İbrahimli:*** *"Kirayə, sosial mənzil mexanizmi aztəminatlı ailələr üçün daha əlverişlidir"*




*Günel CƏLİLOVA*

# Zəlzələyə hansı davamlıdır - köhnə "Xruşşovka"lar, ya "novostroyka"lar...

**Son illər ölkəmizin, demək olar ki, çox yerində, xüsusən də paytaxt Bakıda "novostroyka"lar inşa edilir. 5 və 9 mərtəbəli binaları kölgədə qoyan çoxmərtəbəli binaların sayı çoxaldıqca, onlarla bağlı müxtəlif şayiələr də gündəmə gəlir.**



Daha çox diqqətçəkən məsələ "novostroyka"ların zəlzələyə davamsızlığı ilə bağlıdır. Bir sıra mütəxəssislər hesab edirlər ki, "novostroyka"lar təhlükəlidir və həmin binaların zəlzələyə dözümü çox aşağıdır.

"Novostroyka"larla müqayisədə Sovet dövründə inşa edilən "Xruşşovka"ların zəlzələyə daha dözümlü olduğunu deyən bəzi mütəxəssislər hesab edirlər ki, "Xruşşovka"lar Bakının iqliminə, şəraitinə tam uyğundur. "Novostroyka"ların isə qətiyyən paytaxtımızın şəraiti ilə uyğunlaşmadığını iddia edənlərin qənaətinə görə, zəlzələ baş verən kimi çoxmərtəbəli binaların uçmaq təhlükəsi daha da çoxalır. "Novostroyka"ların xeyli hissəsinin inşasında tikinti qaydalarının gözlənilmədiyini deyən ekspertlər bildirirlər ki, bu səbəbdən onlar zəlzələyə elə də davamlı deyil. Bu gün müzakirə edilən əsas məsələlərdən biri "Xruşşovka"ların "novostroyka"larla müqayisədə daha çox zəlzələyə davam gətirmək iqtidarında olmasıdır.

Tikinti mühəndisi Cahandar Məmmədov bizimlə söhbətində bildirdi ki, "novostoyka"lar əsasən özəl tiknti şirkətləri tərəfindən inşa edilir və heç də bütün tikinti şirkətlərinin tikdiyi binaların hamısı keyfiyyətli deyil. O, həmçinin, vurğuladı ki, Bakıda Sovet dövründə inşa edilən "Xruşşovka"ların çoxunun istismar müddəti başa çatsa da, amma onların hamısı istismardadır və möhkəm özüllər üzərində qurulduqları üçün zəlzələyə də, digər təbii fəlakətlərə də dözümlüdür: "Bakıda inşa edilən "novostroyka"ların hamısı haqqında mənfi fikir bildirmək olmaz. Bu gün həqiqətən də elə "novostroyka"lar var ki, onların möhkəmliyi, zəlzələyə dözümlüyü "Xruşşovka"larla müqayisəyə gəlməz, "Xruşşovka"lar köhnə binalar olmasına baxmayaraq, zəlzələyə daha da dözümlüdür, nəinki bəzi "novostroyka"lar. Vaxtilə "Xruşşovka"lar panellə inşa edilsələr də, çox möhkəmdirlər, panellər bir-birinə elə oturub ki, onun dağılması mümkün deyil. "Xruşşovka"lar, əslində, 30-40 il müddətinə tikilmiş eksperiment binalar idi, amma az qala 50-60 ildir istifadə edilir. Onu da deyim ki, hazırda bir çox brend şirkətlər "novostroyka"ları inşa edərkən bütün tikinti qayda-qanunlarını gözləyirlər və həmin binalar zəlzələyə çox dözümlüdürlər. Bina inşa edilərkən onun inşasında istifadə edilən bütün materiallar ekspertizadan keçirilir və sonra onların istifadəsinə icazə verilir. Əvvəlki dövrlərə baxmayın, bu gün şirkətlər bu məsələyə çox ciddi yanaşırlar. Doğrudur, işinə səhlənkar yanaşan şirkətlər də var. Amma əsasən bu sahədə ciddi rəqabət mühiti formalaşdığı üçün, şirkətlər binaların inşasına ciddi yanaşırlar".

Tanınmış memar Əflan Sadıqov isə əksini düşünür. O hesab edir ki, bu gün paytaxtımızda inşa edilən "novostroyka"lar zəlzələyə dözümlüdür: "Keçən əsrin 60-cı illərində tikilən binaların konstruksiyası ilə yeni binaların konstruksiyası arasında fərqlər çoxdur. Mümkün ola bilməz ki, "novostroyka"ların konstruksiyası "Xruşşovka"ların konstruksiyasından zəif olsun. Bu yanlış fikirdir. Bu gün inşa edilən çoxmərtəbəli binalar müasir tələbata uyğun şəkildə layihələndirilir və inşa olunur. Hesab edirəm ki, yeni tikilən "novostroyka"lar daha keyfiyyətli, zəlzələyə daha dözümlüdür. Bir mütəxəssis kimi bu mənim qənaətimdir.

***Cahandar Məmmədov:*** *"..."Xruşşovka"lar köhnə binalar olmasına baxmayaraq, zəlzələyə daha dözümlüdür"*

***Əflan Sadıqov:*** *"Hesab edirəm ki, yeni tikilən "novostroyka"lar daha keyfiyyətli, zəlzələyə daha dözümlüdür"*

*İradə SARIYEVA*

**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Respublika Xatirə Kitabı redaksiyası ilə "Bakı-xəbər" qəzetinin birgə layihəsi əsasında "Şəhidlər ölməz, Vətən bölünməz" seriyasından "İgid ömrü" adlı növbəti kitabın hazırlanmasına start verdik. Kitab Azərbaycanın Milli Qəhrəmanı Füzuli Salah oğlu Rüstəmovun vətənpərvərlik nidalı həyat, döyüş, qəhrəmanlıq yollarından bəhs edəcək.**

# İgid ömrü

**(ikinci yazı)**



**Füzuli: "Xəstəxanada qalmıram, ermənilər gecə kəndə hücum edər"**

...Fiqurə xanımı dinləyirəm. İllərin, özündən ağır daşıdığı yüklərin taleyində buraxdığı silinməz izlər ömrünün orta yaşlarına gəlib çatmış bu qadının sifət cizgilərinə həkk olunub. Bir qədər mətinləşdirib də onu. Həmsöhbət olarkən düşünürsən ki, o özünü yeganə təmsilçisi olduğu ata ocağının davamçısı saymaqla, özəl həyatı ilə bərabər, həm də bu yükü ömrünün sonuna qədər çəkmək amacının çətinliklərini yaşayır. Amma xalqımızın, təbii ki, qədirbilən qisminin sayəsində Fiqurə xanım heç də tək-tənha deyil. Təki bu kəsimin sayında indikindən də artıq azalma getməsin... Gedərsə, bu artıq bizim bir millət kimi süqutumuzu yaxınlaşdırar. Ona görə də bu "itkilər"dən dolayı hamılıqla narahat olmalıyıq. Füzuli haqqında - Xocalı üçün hər şey etmiş, sonucda Xocalı və xocalılılardan ötrü canından keçmiş qəhrəmanın barəsində bir saat vaxt ayırıb danışmağa belə laqeyd yanaşmaları görəndə mənim yaşadığım dəhşəti Allah heç birinizə nəsib etməsin, əziz oxucular! Onların içərisində Xocalı dəhşətindən məhz Füzulinin sayəsində salamat çıxmış rəsmi və qeyri-rəsmi nə qədər xocalılı var!.. Əfsuslar olsun ki, insan bu qədər soyuqqanlı, bu qədər biganə də ola bilirmiş! Yalnız özünü və kreslosunu düşünənlərlə rastlaşmaq, dəftər-kitaba sığmayacaq "Füzuli miqyaslı bir fakt"a münasibət bildirməkdən qaçıb-yayınmaq...bu "əməlin" adını qoymağı sizlərin ixtiyarına buraxıram...

**Fiqurə Rüstəmova: "Qaldıq ata-anasız, ana babamın himayəsində"**

...Fiqurə xanımı dinləyirəm. Şəhid Milli Qəhrəmanın bacısını. Haqqımızı yeyib üstümüzə silah çəkən, torpaqlarımızda məskən salıb yurdlarımıza göz dikən, "yedikləri qaba tüpürən" ermənilərə qan udduran Füzuli Rüstəmovun dünyamızdakı yadigarını. Əvvəlcə tanışlıq üçün ailələri, ata-anası haqqında bilgiləndirir bizi:

- Mənim atamın ata-anası Naxçıvanda yaşayıb. Soykökümüzsə əslən Qərbi Azərbaycanın Dərələyəz mahalındandır. Ordan Naxçıvana köç ediblər. Atamla anam əmioğlu-əmiqızıdırlar. Anamın atası Kərim babam isə Naxçıvanda yox, Qarabağda - Tərtərin Hüsənli kəndində məskunlaşıb. Bu kənddə böyüyüb həddibülüğa çatan anamı başqasına nişanlıyıbmışlar da. Ancaq atam anamı çox sevdiyindən onu elə nişanlı-nişanlı qaçırıb. Atamla anam evləndəndən sonra daha Naxçıvanda bənd olmayıb, köçüb gəliblər Kərim babamın yanına, Hüsənli kəndinə. Kərim babamsa bu yerdə çox hörmət-izzət sahibi imiş, kolxoz sədri vəzifəsinə qədər yüksəlmişdi. Kənddə heç kim onun sözündən çıxmazmış. Çünki hamı onu ədalətli adam, əsl ağsaqqal kimi tanıyırdı. Atamla anam burda yaşamağa başlayandan sonra əvvəlcə başqa bir qardaşım anadan olub. Sonra sizin indi haqqında məlumat topladığınız Füzuli doğulub. Biz ona bir neçə ad deyirdik: Zamin, Nizami, Füzuli. O isə (dərindən köks ötürür. Sonrakı söhbətlərimizdə bizə bəlli olacaq ki, Füzulinin döyüş yoldaşları, yaşıdları, dostları, hətta komandirləri belə onu rəsmi adı ilə deyil, bu adların hamısı ilə çağırırmış - N.Z.) bütün adları doğrulda-doğrulda, qiymətə mindirə-mindirə yaşayırdı. Füzulinin iki yaşı olanda böyük qardaşımız suda boğulub dünyasını dəyişmişdi. Bunu sizə "bir ailənin faciəsi" kimi danışıram. Babamın həyətində bapbalaca bir sulu çala var imiş. Uşaq gedib əlində bıçaq baxır ki, o suda bunun əksi görünür, ona yaxından baxmaq istəyəndə sürüşüb düşüb suyun içinə, elə orda da boğulub. Bu faciəli hadisə babam Kərim kişiyə çox pis təsir edib. Babam daha həmin evdə, həmin həyətdə yaşamaq istəməyib. Burdakı evi satıb köçüb gedib Kəlbəcərin Vəng kəndinə. Amma atamla anam biz iki uşaqla qalıblar Tərtərdə. Atam işləmək, pul qazanmaq üçün Rusiyaya gedibgəlirmiş.

Bu zaman bizim evimizdə daha böyük faciə baş verir. Bir dəfə anamın atası Kəlbəcərdən gəlib Hüsənlidə qızının evinə baş çəkəndən sonra Ağdamda yaşayan başqa bir qızının evinə yollanır. Axşama qayıtmalıymış. Qayıda bilməyib. Anam səhər yuxudan hövlnak durur ki, atamı yuxuda pis görmüşəm, yəqin başında nə isə var, gedirəm ora, yəni Ağdama. Bu niyyətlə yolun kənarında maşın gözləyəndə Xankəndidən gələn, erməni sürücünün idarə etdiyi o vaxtkı "Alabaş" dediyimiz avtobus anamı vurur. Avtobusun "buynuzu" deyirdik, o çıxıntısı ilişir anamın paltarına onu xeyli sürüyür. Anamın həm ayağı qırılır, həm də qara ciyəri partlayır. Sən demə, babam artıq yoldaymış, gəlirmiş. Babam Ağdamdan qayıdıb bu kəndə çatanda xeyli adamın bir yerə toplaşdığını və "təcili yardım" maşınını görür. Cəld hadisə yerinə yaxınlaşanda görür ki, ölüm ayağında olan onun öz qızıdı. Götürüb aparır Tərtərin mərkəzindəki xəstəxanaya. Orda da babamı adlı-sanlı kişi kimi tanıyırmışlar. Həkim deyir, ay Kərim əmi, bunu burda saxlamağın faydası yoxdu, əlac qalmayıb, qara ciyəri partlayıb, aparın evinizə. Evə gətirən kimi anamız dünyasını dəyişdi. Anam elə bil ki, özünü atasına qurban verdi. Hələ ondan bir neçə ay əvvəl atası xəstələnəndə gedib Kəlbəcərin Vəng kəndində babamın çarpayısının başına fırlanmışdı ki, ilahi, canı canla dəyiş! Orda erməni həkim buna irad tutanda ki, sənin iyirmi beş, atanın əlli yaşı var, anam cavab vermişdi ki, mən atamsız yaşaya bilmərəm. Bu qəza ilə də elə bil Allah onu öz arzusuna çatdırmışdı, elin deyimi ilə yanaşsaq, "balası atasının qadasını aparmışdı"...

...Bir qədər keçdi, atam gəldi, gördü ailəsi belə bir vəziyyətdə dağılıb. Atam yenidən evlənsəydi də belə, babamgil bizi ona verməyəcəkdi. Deyirdilər qızımızın (anamın - N.Z.) iyini bizdən alırlar. Nə isə, atam yenə qayıtdı Rusiyaya. Bu zaman qardaşım Zamin birinci sinfə gedirdi, mən hələ məktəbli deyildim, üç yaşım vardı. Babam qardaşımı aparıb qoydu Şuşada internat evinə. Məni isə apardı Kəlbəcərə öz yanlarına. Sonra məktəb yaşına çatanda məni yenidən gətirib Tərtərin Hüsənli kəndində - xalamgildə qoydular ki, burda dərsə gedim. Yaxşı xatırlayıram, dedilər ki, anam radioda Fiqurə adlı bir həkimin olduğunu eşidibmiş, mənə onun adını qoyub və əhd edibmiş ki, mənə də həkimliyi oxutdursun. Babamla nənəm də, nəyin bahasına olursa-olsun, dünyadan nakam köçmüş anamın o arzusunu doğrultmaq istəmişdilər. Bunu ona görə deyirəm ki, mənim özlərindən uzaq bir yerdə qalaraq oxumağımı zərurətə çevirən səbəbin nə olduğunu biləsiniz. Bir il xalamgildə, bir il dayımgildə qaldım. Heç də belə xoş deyildi mənə atasız-anasız uşaq kimi onlarda qalmaq, amma babamı görəndə şikayətlənmirdim. Tərslikdən həmin il bizi bir bəla da ağuşuna aldı. Atam da Rusiyanın Həştərxan şəhərində rəhmətə getdi. Belə ki, o, qışda qarın üstündə yol getdiyi zaman görür bir qadın qışqırır. Sən demə buz qırılıb, qadının uşağı düşübmüş buzun altına. Atam atlanır onu çıxarmağa, özü də orda batıb-boğulur. Əlqərəz, bu dəhşəti də biz körpələr yaşadıq. Onun da meyitini gətirib, apardılar Naxçıvanda atasının yanında dəfn elədilər. Qaldıq həm atasız, həm anasız, ana babamın himayəsində.

**Ailə bir ocağa Xocalıda cəmləndi...**

Bundan sonra Kərim kişi Kəlbəcərdən köçüb gəlir Xocalıya. Füzuli ilə Fiqurənin Xocalılı günləri - xocalılı taleyi də beləcə başlayır. Fiqurə bu zaman artıq ikinci sinifdə oxuyurmuş. Qardaşını da Şuşadan internatdan çıxarıb gətirirlər Xocalıya ki, burda birlikdə məktəbə getsinlər. Nəhayət, bir bacı, bir qardaşdan ibarət bu valideynsiz ailə vahid ocağın başına cəm ola bilir. Nisbətən qayğısız günlər, həm də bir yerdə ola bilməkləri onların çox sevindirir. Bu günlərin ömrü nə qədər olacaq idi, dəyərdimi Xocalıda sevinə-sevinə yaşamaqlarına?.. Çətinliklər doğrudanmı bitmiş, arxada qalmışdı?!. Hər halda, arzularla dolu gələcəyə inam hissi ilə bacı-qardaş Kərim babanın, Tamaşa nənənin, Səkinə xalanın himayəsində füsunkar, barlı-bərəkətli təbiətin qoynunda yerləşən kənddəki həyatlarını yaşamaqda davam edirlər. Kərim kişi nəvələrinin gələcəkdə sərbəst, rahat yaşayışını təmin etmək üçün onlara öz qonşuluğunda həyətyanı torpaq sahəsi də ayırtdırır:

- Füzuli səkkizinci sinifdə oxuyurdu. Babam öz qonşuluğunda bizim üçün həyət yeri götürdü ki, biz də orda ev tikək. Burda oxuduq, qardaşım 8-ci sinfi bitirdi, bir az sovxozda işlədi, sonra getdi Sovet əsgərliyinə. Moskva ətrafında qulluq elədi. Əsgərlikdən babamın üstünə vaxtaşırı tərifnamələr göndərirdilər ki, təşəkkür edirik belə bir uşaq böyütdüyünüzə görə. Mən də gəlib imtahan verdim qəbul üçün. İmtahanın birindən keçə bilmədim, qayıdıb mühasiblik oxudum. Sonradan müəllimlik ixtisası almışam. Qardaşım da əsgərlikdən sonra yenidən başladı sovxozda işləməyə. İşləyə-işləyə həyətində ağaclar əkdi, ev tikmək üçün bünövrə tökdü. İstəyirdi evini 1988-ci ilədək yekunlaşdırıb ailə qursun. İstəklisi vardı. Bərdədən qız istəyirdi. Amma alınmadı. 89-cu ildə babam rəhmətə getdi. Amma hələ 88-ci ildə kəndimizdə çalınan bir toya hücum eləmişdilər ermənilər, o zaman qardaşım da bu toyda olmuşdu. Kəndin cavanları ilə əllərinə ağac, dəyənək götürüb ermənilərin qabağına çıxmışdılar. Bunu ona görə deyirəm ki, hələ 88-ci ildən qarışıqlığın başlandığı hamıya aydın olsun. Baxmayaraq ki, biz orda yaşayırdıq, hələ bu dövrdən ara-sıra müəyyən toqquşmalar baş verirdi. Kənddə də silah yox idi. Olan silahları da yığmışdılar. Ancaq mənim babamın tir tüfəngi, mauzeri, beşaçılanı var idi. Füzuli bu silahları götürüb erməniləri tez-tez qorxudurdu. O vaxt əlinə silah alanı tuturdular. Babam da Füzulinin xasiyyətini bildiyindən, onun dinc dayanmayacağından ehtiyatlanıb aparıb silahlarını hasarın bir küncündə basdırıb gizlətmişdi. Buna baxmayaraq, Füzuli yenə silahları gizlində tapıb bir neçə dəfə dediyim kimi istifadə eləmişdi. Babam bunu biləndən sonra Ağcabədidə bir dostundan xahiş eləmişdi ki, aparıb silahları evində gizlətsin, yoxsa Füzuli hardasa bu silahlarla tutacaqlar. Silahla davranmağı da uşaqlıqdan öyrənmişdi, tez-tez ova gedirdi, dovşana, kəkliyə atırdı. Babamı ən çox əsəbiləşdirənsə onun hansısa erməninin üstünə silah çəkməyini eşitməyi olmuşdu.

**Füzulinin cəsurluğu uşaqlıqdan ermənilərin diqqətini çəkir...**

Füzulinin özünü qoçaqqorxmaz göstərməyi, cəsurluğu hələ uşaqlıq çağlarından ermənilərin diqqətini cəlb edir. Yəqin onlar azərbaycanlıların diribaş cavanlarını, zirək uşaqları nəzarətdə saxlamağı planlaşdırırmışlar. Kim bilir, bəlkə də bu "yuxarıdan" gələn göstəriş və ya gələcəkdə yaşanacaq olaylar zamanı özlərinə dəyə biləcək zərbə nöqtələrini neytrallaşdırmaq, yaxud tamamilə sıradan çıxarıb məhv etmək məqsədilə düşünülübmüş. Fiqurənin söylədiyinə görə, ermənilərin "diqqətinə" düşən azərbaycanlılardan biri də Füzuli olub. Həm də Füzuli məsələsinə daha "spesifik" yanaşırmışlar:

- İnanın ki, Zamin ad çıxarmağa başlayan kimi, hələ ermənilərlə münaqişə başlamamış Əsgəranın Ağacanyan soyadlı milis rəisi meşəbəyimiz Bayram adlı kəndlimizə demişdi ki, Kərim kişinin bir nəvəsi əmələ gəlib, onun qarşısını almaq üçün Əsgəranda xüsusi bir qala tikmək lazımdı. Bayram kişi soruşur niyə belə deyirsiniz? Ağacanyan cavab verir ki, o, silahla çox oynayır. Biz o zaman bu sözlərin nə demək olduğunu, Ağacanyanın narahatlığının arxasında hansı məkrli niyyətlərin dayandığını heç başa da düşməmişdik. Amma bu zaman artıq evlərdən tir tüfənglərini də yığmışdılar. Babam da ona görə narahat olub silahlarını Ağcabədiyə göndərdi. Bundan sonra o toya ki, ermənilər Xankəndindən tökülüşüb gəlmişdilər, Füzuli orda ağacla ermənilərin neçəsini döymüşdü. Bunu da topuğundan vurub yaralamışdılar. Onunla bərabər başqa yaralananlar da vardı. Yaralananları yığıb apardılar Ağdam xəstəxanasına. Orda yaraların sarıdılar. O birilər yatıb qalmışdı xəstəxanada. Füzulisə gecəylə qayıdıb gəldi ki, nə danışırsız, mən qalmıram, ermənilər gecə vaxtı kəndimizə hücum edərlər. İndiki kimi xatırlayıram onun axsaya-axsaya necə gəldiyini...

*(ardı var)*

**Nəzirməmməd ZÖHRABLI**
**Jurnalist-publisist**

# Azərbaycanda cəmi 3 iqlim qurşağı var imiş? - İllər boyu 9 qurşaqdan danışanların fikri alt-üst edilir...

**Bu gün ölkəmizdə istənilən şəxsə sual versən ki, Azərbaycanda neçə iqlim qurşağı var, o adam tərəddüd etmədən "dünyada olan 11 iqlim qurşağının 9-u Azərbaycandadır" cavabını verəcək. Dərsliklərdə, elmi-kütləvi məqalələrdə, KİV-də Azərbaycandakı iqlim qurşağının sayının 9 olduğu qeyd edilir.**

*"Azərbaycan ərazisinin 65 faizi subtropik, 32 faizi mülayim, 3 faizi isə soyuq iqlim qurşağına aiddir"*

***Məhərrəm Həsənov:*** *"Azərbaycanda 9 iqlim qurşağının olması ilə bağlı yanlış fikirlər XX əsrin 30-cu illərində meydana çıxıb"*

Azərbaycanda 9 iqlim qurşağının olması müxtəlif nəşrlərdə və elektron resurslarda əks olunub. Amma uzun müddət dövriyyədə olan və insanların şüurunda özünə yer tutan bu informasiyanın yalan olduğunu iddia edən alimlər var. Vaxtilə Milli Elmlər Akademiyası (AMEA) Coğrafiya İnstitutunun alimlərinin və digər coğrafiyaçı alimlərin "Azərbaycanda 9 iqlim qurşağı var" iddiasının blef olduğunu elə bu institutun öz əməkdaşları üzə çıxarıblar.

AMEA Coğrafiya İnstitutunun direktor müavini, coğrafiya üzrə fəlsəfə doktoru Məhərrəm Həsənov "Bakı-Xəbər"ə bildirdi ki, Azərbaycanda 9 iqlim qurşağının olması ilə bağlı deyilənlər həqiqəti əks etdirmir. Onun qənaətinə görə, uzun illərdir bu istiqamətdə aparılan elmi-tədqiqat işləri ölkəmizdə 9 iqlim qurşağının olması məsələsini alt-üst edir. "Bəzi mənbələrdə Azərbaycanda 9 iqlim qurşağının olduğu yazılır. Amma, əslində, Azərbaycan ərazisi 3 iqlim qurşağında yerləşir. Azərbaycan ərazisinin 65 faizi subtropik, 32 faizi mülayim, 3 faizi isə soyuq iqlim qurşağına aiddir.

M.Həsənov qeyd etdi ki, Azərbaycandakı 3 iqlim qurşağının daxilində 8 iqlim tipi var: "Bunlar yarımsəhra və quru çöl iqlimi, qışı quraq keçən mülayim-isti iqlim, yayı quraq keçən mülayim-isti iqlim, qışı quraq keçən soyuq iqlim, yayı quraq keçən soyuq iqlim, yağıntısı bərabər paylanan mülayim-isti iqlim, bütün fəsillərdə bol yağıntılı soyuq iqlim və dağlıq tundra iqlimidir".

M.Həsənov vurğuladı ki, bəzən mövcud iqlim qurşağının sayı ilə yanaşı, iqlim tiplərinin sayı barədə də səhv fikirlər yazılır. O bildirdi ki, ölkəmizdəki yarımsəhra və quru çöl iqlim tipi iki yerə (qışı soyuq, yayı isti, quraq keçən yarımsəhra və quru çöl və qışı mülayim, yayı isti, quraq keçən yarımsəhra və quru çöl) bölünür. Onların hər biri ayrıca iqlim tipi kimi qəbul edilir və beləliklə də, yanlış olaraq, ölkəmizdə 9 iqlim tipinin olduğunu söyləyirlər. Birinci yarımtip Naxçıvan MR-in Arazboyu maili düzənliklərində, ikinci yarımtip isə Kür-Araz ovalığı, Qobustan, Ceyrançöl, Samur-Dəvəçi ovalığı və s. yerlərdə müşahidə edilir. Alimin sözlərinə görə, iqlim tiplərinin sayı ilə bağlı yaranmış səhv fikir artıq bəzi mənbələrdən qaldırılır.



Müsahibimiz məlumat verdi ki, Azərbaycanda 9 iqlim qurşağının olması ilə bağlı yanlış informasiyalar ötən əsrin 30-cu illərində meydana gəlib və bu günədək qeyri-elmi nəticə kimi dövriyyədə olub: "Bilirsiniz, Azərbaycanda 9 iqlim qurşağının olması ilə bağlı yanlış fikirlər XX əsrin 30-cu illərində meydana çıxıb. Deməzdim ki, alimlər bunu savadsızlıqdan ediblər. Həmin dövrdə texnika güclü inkişaf etməmişdi, bu sahədə tədqiqatlar aparılması və doğru qənaətə gəlinməsi üçün lazımi cihazlar, stansiyalar yox idi, ona görə də alimlər belə qənaətə gəlmişdilər ki, Azərbaycanda 9 iqlim qurşağı var. Əslində isə belə deyil. Uzun illərdir apardığımız elmi-tədqiqat işləri nəticəsində biz bu qənaətə gəldik".

Qeyd edək ki, bu məsələ dərsliklərin çoxunda da köhnə qayda ilə qeyd edilib. Mütəxəssisin sözlərinə görə, artıq bu yanlış yanaşma tədricən aradan qaldırılmaqdadır. O vurğuladı ki, kurrikulum əsasında hazırlanan yeni dərsliklərdə də iqlim tiplərinin sayı artıq 9 deyil, 8 göstəriləcək və bütün yanlışlıqlar aradam qaldırılacaq: "Vaxtilə meydana atılan 9 iqlim qurşağı söhbətini əsasən mətbuat daha çox işlədib. Hətta AzTV-də də verilişlərdə bu cür işlənir. Amma bilmək lazımdır ki, Azərbaycanda 9 iqlim qurşağı yoxdur. Bizdə 9 iqlim qurşağı olsaydı, gərək ekvatora qədər gedib çataydıq. Belə deyil. Bu yanlış məlumatdır" - deyə M.Həsənov bildirdi.

***İradə SARIYEVA***

# Əhmədlidə su sayğaclarının dəyişdirilməsinə 20 manat haqqı kim müəyyənləşdirib?

**Bakı şəhəri Xətai rayonu, Əhmədli qəsəbəsində mənzillərdə su sayğaclarının dəyişdirilməsi üçün vətəndaşlardan pul istənilir. Bu barədə qəsəbə sakinlərinin şikayətlərində bildirilir. Şikayətçilər qeyd edirlər ki, binada su sayğaclarının dəyişdirilməsinə görə hər mənzil üçün 20 manat pul tələb olunur:**

*"Su sayğaclarının dəyişdirilməsi, xəttin çəkilməsi və şəbəkəyə qoşulması ödənişsizdir, dövlət vəsaiti hesabına həyata keçirilir"*

***Anar Cəbrayıllı:*** *"Həmin ərazidə "Azərsu" işləmir, podratçı şirkətlər çalışır"*

"Azərsu" binamızda su sayğaclarını dəyişir, soruşanda deyirlər ki, sayğacların dəyişdirilməsi üçün 20 manat ödəniş edilməlidir. 20 manatın 10 manatını zəhməthaqqı, yerdə qalanını isə "mufta-uqolnik" pulu üçün lazım olduğunu deyirlər. Ancaq nəzərə almaq lazımdır ki, "mufta-uqolnik" pulu maksimum 1-2 manat ola bilər. Biz başa düşmürük, ümumiyyətlə, bütün bunlar ödənişlidir, yoxsa ödənişsiz?"

Qeyd edək ki, su sayğaclarının dəyişdirilməsi üçün vətəndaşlardan pul tələb olunmamalıdır. Ancaq Xətai rayonu, Əhmədli qəsəbəsində mənzillərdə su sayğaclarının dəyişdirilməsi üçün vətəndaşlardan əlavə ödəniş tələb olunması düzgün deyil.

"Azərsu" ASC-nin mətbuat xidmətinin rəhbəri Anar Cəbrayıllı bildirdi ki, bu kimi hallarla bağlı quruma çoxlu sayda müraciət olur: "Həmin ərazidə "Azərsu" işləmir, podratçı şirkətlər çalışır. Su sayğaclarının dəyişdirilməsi, xəttin çəkilməsi və şəbəkəyə qoşulması ödənişsizdir, dövlət vəsaiti hesabına həyata keçirilir. Amma məsələnin başqa bir tərəfi də var. Şəxsən özüm belə şikayətləri araşdıranda maraqlı faktlarla qarşılaşmışam.



Bəzən sakinlər deyirlər ki, su xəttini binanın çölü və ya damı ilə çəkin və ya elə edin ki, kafel zədələnməsin.

**Bu da tərəflər arasında sövdələşmələrə və şikayətə səbəb olur. Amma Əhmədlidə şikayət olunan ərazidə dəqiq ünvan və ya telefon nömrəsi verilərsə, məsələ tam şəkildə araşdırılar".**

***Günel CƏLİLOVA***

№ 19 (4150) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

4 FEVRAL 2020-ci il

www.baki-xeber.com

# Azərbaycan alimləri ilk dəfə vulkan palçığından gübrə aldılar



**Azərbaycan alimləri ilk dəfə olaraq vulkan palçığı xammalı əsasında kompleks gübrə alıblar.**

Bu barədə "Milli.Az"a Azərbaycan Milli Elmlər Akademiyasının Geologiya və Geofizika İnstitutundan bildirilib. Geologiya və Geofizika İnstitutunun elmi işlər üzrə direktor müavini, AMEA-nın müxbir üzvü Dadaş Hüseynovun, "Palçıq vulkanizmi" şöbəsinin rəhbəri Adil Əliyevin, "Geoekologiya" şöbəsinin baş elmi işçisi Mirəli Alosmanovun, "Palçıq vulkanizmi" şöbəsinin aparıcı elmi işçisi Orxan Abbasovun, eləcə də,s AMEA akademik M.Nağıyev adına Kataliz və Qeyri-üzvi Kimya İnstitutunun və Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin əməkdaşlarının birgə ərsəyə gətirdiyi elmi ixtira Əqli Mülkiyyət Agentliyi tərəfindən patentləşdirilib. Həmmüəlliflər üzvi-mineral kompleksin hazırlanması texnologiyası üçün vulkan palçığı ilə bərabər, istehsalat tullantılarından da istifadə ediblər. Hazırlanmış gübrənin müxtəlif torpaqlarla əlaqəli variantlarının tətbiqi onların bitkilərin inkişafına müsbət təsirini təsdiqləyib. Hazırda elmi ixtiranın nəticələrinin tətbiqi, o cümlədən alınmış üzvi-mineral kompleksin kənd təsərrüfatı sahələrində geniş istifadəsi ilə bağlı çalışmalar davam etdirilir.

## Əlləri iflic olanlar üçün əlcək

**Cənubi Koreyada hazırlanmış yeni əlcək, iflic və ya qəza nəticəsi əllərində problem olanlara gündəlik həyatlarında bir çox asanlıq təmin edir.**

Əlcəkləri istifadə edən adam, əlcəkdəki mühərrik sistemi sayəsində obyektləri tuta bilir. Xüsusilə? sağlamlıq sahəsində yaradılan yeni texnologiyalar, bir çox adam üçün ümid işığı olur. Neofact layihəsi çərçivəsində qəza nəticəsində barmaqlarını itirən və ya barmaqları doğuşdan əskik olanlar üçün hazırlanan məhsul, ümumi olaraq protez 3 qisimdən ibarətdir. Mühərriki olan əlcək, geyən adamın baş barmağını qavrayacaq şəkildə dolanır və baş barmaqdan etibarən işarə və orta barmaqları da əhatə edəcək şəkildə uzanır. Cihazın ön qol qisiminə taxılan nizamlana bilən sarğıya bağlı bir də güc modulu var. Bu güc modulu, olduğu yerdən kabellər köməyiylə barmaqlara qədər uzanır. Bununla birlikdə protez sistemində "Bluetooth" dəstəkli uzaqdan əmr dəstəyinin də olduğu ifadə edilir. İnsanlar istəsə, bir başqa sarğı istifadə edərək əmri üst qola taxa bilərlər.

**Elan**

Şəki şəhər sakini Paşayev Vaqif Gülbala oğlunun adına verilmiş 404011003463-06301 saylı reyestrdən çıxarış itdiyi üçün etibarsız sayılır.

Əliyev Sərxan Tahir oğlunun adına, Abşeron rayonu, Donuzkökəltmə sovxozunda yerləşən torpaq sahəsinə verilmiş çıxarış (reyestr nömrəsi 308011028511) itdiyi üçün etibarsız sayılır.

## "Azercell"in "Mobil Göz Klinikası"nda 900-dən çox adam müayinə edilib

**Müasir texnologiyalar və effektiv həllərin tətbiqi vasitəsilə insan həyatını asanlaşdırmağı hədəf seçən Azərbaycanın lider mobil operatoru "Azercell Telekom" MMC bu istiqamətdə öz fəaliyyətini davam etdirir.**

"Azercell"in dəstəyilə valideyn himayəsindən məhrum uşaqlar üçün müayinə və profilaktikanın aparılmasını təmin edən "Mobil Göz Klinikası" ən müasir avadanlıqla təchiz olunub. Klinikanın xidmətlərindən, eyni zamanda, ahıllar, aztəminatlı ailələr və məcburi köçkünlər də yararlanırlar.

2019-cu il ərzində müayinədən keçənlərin 759-u uşaq və 142-si böyüklər olmaqla, cəmi 901 nəfər olub.

Xatırladaq ki, layihə çərçivəsində bütün müayinə və müalicə tədbirləri "Azercell"in dəstəyilə "Xəzər Qayğıkeşlik Layihəsi" İctimai Birliyi tərəfindən həyata keçirilir. Layihə çərçivəsində "Mobil Göz Klinikası" minlərlə insana xidmət göstərib.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

## "Nar" ictimai fəallığı ilə seçilmiş gəncləri təbrik etdi

**Hər zaman gənclərə dəstək olan, onların peşəkar karyera qurmalarına, maariflənməsinə və asudə vaxtının səmərəli keçirilməsinə çalışan "Nar" 2 fevral - Gənclər Günü münasibətilə istedadlı və yaradıcı gənclərə öz dəstəyini göstərib.**

Belə ki, Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə keçirilmiş mükafatlandırma mərasimində mobil operator uğurlu fəaliyyəti ilə seçilmiş tələbə gənclər təşkilatlarını təbrik edib.

Gənclər Gününə həsr olunmuş tədbirdə 2019-cu ildə müxtəlif sahələrdə nailiyyətlər qazanmış, respublikamızı xarici ölkələrdə yüksək səviyyədə təmsil etmiş gənclər, eləcə də ictimai fəallığı ilə seçilmiş gənclər təşkilatları mükafatlandırılıb. Məqsəd yüksək nailiyyət əldə etmiş gənclərin əməyini qiymətləndirmək, istedadlı gənclərin yaradıcılıq potensialının inkişaf etdirilməsi üçün əlverişli şərait yaratmaq və onların peşəkarlıq səviyyəsinin artırılması üçün əlavə stimul verməkdir.

Qeyd edək ki, "Nar" korporativ sosial məsuliyyət strategiyası çərçivəsində gənclərin cəmiyyət üçün əhəmiyyətini anlayaraq, onların maariflənməsi, dünyagörüşü və analitik düşüncə bacarığını inkişaf etdirən layihələrə dəstək verib. "Nar"ın KSM layihələri haqqında ətraflı məlumatı nar.az səhifəsindən əldə etmək olar.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 8700-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksək keyfiyyətli xidmət göstərir.





**Qoç** - Çox uğurlu gündür. Başladığınız işlərin praktiki olaraq hamısını başa vura bilərsiniz. Peşəkar fəaliyyət sahəsində qeyri-standart və mürəkkəb problemlərin həlli ilə bağlı problemlər yaranmayacaq.



**Buğa** - Hadisələrin təbii axarı aktivliyinizi müəyyənləşdirməlidir. İstənilən iş üçün münbit gün olduğundan şəraitdən maksimum yararlanın. Mümkün çətinlikləri əvvəlcədən təxminləmək üçün intuisiyanızı işə salın.



**Əkizlər** - İşdə rəhbərliklə münaqişə istisna deyil. Günün ikinci yarısında planlaşdırılmamış alış-verişdən, bədxərclikdən uzaq olun. Ən xırda və kiçik məsələlərdə belə, sayıq davranın. Sonradan acı təəssüf hissi yaradacaq yanlışlıqlara yol verməyin.



**Xərçəng** - Baş verənlərə rəğmən sakit və təmkinli olun. Çətin olsa da, çalışın. Günün ortaları ən mürəkkəb zamandır. Emosiyaların əsirinə çevrilsəniz, işlər alt-üst olacaq. Aqressiv, davakar, qıcıqlı davranmayın.



**Şir** - Asan və sadə gündür. Faydalı təmaslar qurmaq, yaxşı məsləhət verəcək və ya dəstək olacaq insanlarla tanış olmaq mümkündür. Yeni tanışların rəğbətini qazanmağa çalışın. Əks cins mənsubunun diqqətini cəlb edəcəksiniz.



**Qız** - Uğur vəd edən gündür. Diqqətli olun, yeni təmayülləri izləyin. Fikir və təşəbbüslərinizin yaxın ətrafınızdakı insanlar tərəfindən qəbulu üçün təsirlərə əl atmayın. Yaşamınızda yeni imkanlar paradoksal şəkildə yarana bilər.



**Tərəzi** - İşlərə yardımçı cəlb edin. Layihənizi reallaşdırmağa başlayın. Avadanlıq, texnika və mexanizmlərlə çalışarkən diqqətli olun. Rəqibləriniz mühüm məsələnin həllində axtarışlarda olanda siz onları üstələyə bilərsiniz.



**Əqrəb** - Məqsədə çatmaq üçün yasaq metodlarından istifadə etməyin. Çətin olsa da, səbrli və müdrik davranın. Təsir edə bilmədiyiniz şərtləri müəyyənləşdirin, güzəştə ehtiyac yaranarsa, gecikməyin.



**Oxatan** - Sizə faydalı ola biləcək insanlarla görüşün. Dostlarla ünsiyyətdə fayda var. Romantik münasibətlərdə məntiq az, iradlar çoxdur. Sevdiyiniz insanla münasibətlərinizi tarıma çəkməyin.



**Oğlaq** - Adətən, görmədiyiniz işlər sizi gözləyir. Ağır, çətin gündür. Dəyişiklik, problemlərdən qurtuluş istəyi yaranır. Gərginlik artır. Planlar sizdən asılı olmayaraq dəyişə bilər. Mübahisə, əlavə iş istisna deyil.



**Dolça** - Yaxın gələcəkdəki perspektivlər üçün fövqəladə dərəcədə mühüm gündür. Yaşanan saatlar istiqamətin dəyişməsi, kursun fərqli istiqamətə yönəlməsinə səbəb ola bilər. Bir işin xətrinə başqasından imtina edə bilərsiniz.



**Balıqlar** - Dəqiq niyyətləriniz olmadan danışıqlar aparmayın. Planlar və ideyalar cazibədar təsir bağışlaya bilər. Lakin dəqiq hesab və ilkin hazırlıq olmalıdır. Başladığınız işlərdə, tələb və niyyətlərinizdə ifrata varmayın.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Koronavirusa yoluxan britaniyalı xəstəliyə viski və balnanla qalib gəldi

**Koronavirusa yoluxmuş ilk britaniyalı "The Sun"a verdiyi açıqlama ilə diqqət çəkib.**

"Milli.Az" xarici mətbuata istinadla xəbər verir ki, bir müddət əvvəl Çində koronavirus diaqnozu qoyulan 25 yaşlı britaniyalı Connor Reed xəstəliyə qalib gəldiyini açıqlayıb. Əslən Uelsdən olan Connor Reed fasiləsiz öskürdüyünə görə xəstəxanaya müraciət edib. 3 ildir ki Çində yaşayan Connora koronavirus diaqnozu qoyulub. O, 2 həftə xəstəxanada müalicə aldıqdan sonra evə buraxılıb. "Həkimlər mənim bu virusa yoluxduğumu söyləyəndə öləcəyimi düşünürdüm. Amma xəstəliyə qalib gəldim. Sağalana qədər hər gün isti viskiylə bal içirdim. Bunun qədim zamanlarda müalicə üsulu kimi istifadə olunsa da, görünür, hələ də işə yarayır", - Connor söyləyib. O bildirib ki, həkimlərin məsləhət gördüyü antibiotiklərdən və dərmanlardan istifadə əvəzinə gündəlik olaraq viski və bal qəbul edib. Qeyd edək ki, Connor Vuhandakı universitetlərin birində ingilis dili müəllimi işləyib.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.